Bu bir xalq qəzetidi

ƏDALƏT

## Azərbaycan və Türkiyə XİN rəhbərləri Belqradda görüşüb



**Belqradda Qoşulmama Hərəkatının 60 illiyi münasibətilə keçirilən yüksək səviyyəli görüş çərçivəsində Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramovun Türkiyə Respublikasının xarici işlər naziri Mevlüt Çavuşoğlu ilə görüşü baş tutub.**

Nazirlikdən Adalet.az-a verilən məlumata görə, görüşdə nazirlər ikitərəfli əməkdaşlıq gündəliyinin bəzi məsələləri, habelə regiondakı cari vəziyyət ilə bağlı fikir mübadiləsi aparıblar. Nazirlər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

## Aqil Abbas: "Mədəniyyət Nazirliyinin başı ayrı işlərə qarışıb"



*"Mədəniyyət Nazirliyinin başı ayrı işlərə qarışıb. Möhtərəm Prezident Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edib. Ancaq Şuşanın Mədəniyyət Mərkəzi yoxdur".*

*Adalet.az xəbər verir ki, bunu deputat Aqil Abbas parlamentin dünən keçirilən plenar iclasında deyib.*

*Onun sözlərinə görə, Sumqayıtdan nə bir muğam oxuyan, nə də tarzən çıxıb: "Şuşa Mədəniyyət Mərkəzi Sumqayıtdan ayrılmalıdır. Bu nə deməkdir? Yeni mədəniyyət naziri var. Baxsın, görüsün. Bu gün Şuşa yenidən tikilir. Camaat da yenidən evlərinə qayıdacaq. Belə çıxır ki, onlar yenidən Sumqayıta qayıdacaqlar? Mədəniyyət Nazirliyi Şuşa Mədəniyyət Mərkəzinin fəaliyyətini bərpa etsin".*

*Milli Məclisin sədri Sahibə Qafarova isə deyib ki, Şuşa işğaldan azad edilib və bütün qurumlar da yerinə qaytarılacaq.*

*Deputat Elman Məmmədov da təklif edib ki, Qarabağ Regional Mədəniyyət Mərkəzi yaradılsın: "Həmin mərkəz isə Şuşada yerləşdirilsin".*

## ABŞ-dan Ukraynaya 60 milyonluq yardım

**ABŞ hərbi təyyarəsi Ukraynaya növbəti hərbi yardım partiyasını çatdırıb. Bu barədə Ukrayna Müdafiə Nazirliyinin məlumatında deyilir.**

Hərbi texnikanın arasında döyüş sursatları, yüksək dəqiqliyə malik silahları, radiolokasiya müşahidə sistemlərinin olduğu deyilir.

Hərbi yardımın dəyəri 60 milyon dollardır.

Qeyd edək ki, bundan öncə ABŞ və Ukrayna arasında 250 milyon dollarlıq hərbi müqavilə imzalanmışdır.

## "Azərbaycan xalqı ilk dəfə Müstəqillik Gününü qalib xalq kimi qarşılayacaq"



**Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli şəraitdə, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qarşılayacaq.**

Adalet.az-ın məlumatına görə, bunu Milli Məclisin birinci vitse-spikeri Əli Hüseynli parlamentin dünən keçirilən iclasında "Müstəqillik Günü haqqında" qanun layihəsi haqda danışarkən deyib. O qeyd edib ki, bu il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edilməsinin 30 ili tamam olacaq. Ə.Hüseynli bildirib ki, Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli şəraitdə, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qarşılayacaq. O bildirib ki, Prezidentin imzası ilə parlamentə daxil olan qanun layihəsi torpaqlarımızın işğaldan azad edildiyi və ərazi bütövlüyünün tam təmin olunduğu bir dövrdə mühüm siyasi və tarixi əhəmiyyət daşıyır. Ə.Hüseynli vurğulayıb ki, milli tariximizdə müstəsna əhəmiyyət kəsb edən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlər qanun layihəsində daha dəqiq ifadə olunub. Qeyd edək ki, layihəyə əsasən, mayın 28-nin Müstəqillik Günü, oktyabrın 18-nin Müstəqilliyin Bərpası Günü elan edilməsi nəzərdə tutulur.

## MDB Daxili İşlər Nazirləri Şurasının iclası keçirilib

Bax:səh-2

## Siyasi partiya rəhbərləri Şuşada

**Son vaxtlar Prezident Administrasiyasının Siyasi partiyalar və qanunveric orqanlarla iş şöbəsinin müdiri Ədalət Vəliyevin rəhbərliyi ilə ölkədə fəaliyyət göstərən siyasi partiyalarla mütamadi əlqalər yaratması, onların siyasi durumla bağlı irad və təkliflərini dinləyərək gələcək münasibətlərin qurulması üçün çox işlər görülür.**

Bu günlərdə siyasi partiya rəhbərlərinin, həmçinin tanınmış politoloq və siyasi şərhçilərin Şuşa şəhərinə təşkil olunan səfəri də bu qəbildəndir. Prezident Administrasiyasının siyasi partiyalar və qanunverici orqanlarla iş şöbəsinin rəhbərliyi ilə Mədəniyyət Mərkəzi Şuşaya təşkil olunan səfər, səfər iştirakçəlarında geniş təssüratlar yaradıb.

Bax:səh-2

## Səhiyyə Nazirliyi əhalini 3-cü doza ilə peyvəndlənməyə çağırır



**Səhiyyə Nazirliyi əhalini 3-cü doza ilə peyvəndlənməyə çağırır.**

Nazirlikdən Adalet.az-a verilən məlumata görə, "Azərbaycan Respublikasında "COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi davam edir.

Qeyd edilir ki, koronavirusun daha yoluxucu "Delta" ştammının gündəmdə olması virusla daha ciddi mübarizə aparılmasını zəruri edir. Bundan əlavə mövsümlə əlaqədar havanın dəyişməsi də epidemiyanın daha geniş yayılması riskini artırır:

"Digər tərəfdən koronavirusa qarşı istifadə olunan peyvəndlərin effektinin müəyyən müddətdən sonra azaldığı da araşdırmalarla sübuta yetirilib.

Xəstəliyə qarşı immuniteti artırmaq üçün 3-cü (buster) dozanın vurulması ehtiyacı yaranır. Qeyd edək ki, Türkiyə, Çin, Avstriya, Belçika, Finlandiya, Macarıstan, Rusiya, İspaniyada, İsveçrədə də artıq 3-cü gücləndirici doza vaksinasiyaya start verilib.

Son elmi tədqiqatların nəticələrini və COVID-19 virusunun mutasiya uğramasını nəzərə alaraq. Səhiyyə Nazirliyi hər 2 doza vaksin almış risk qrupuna daxil olan vətəndaşları, xroniki xəstəliyi olanları, bütün tibb işçilərini və yaşı 50-dan yuxarı olan əhalini 3-cü doza ("buster" doza) ilə peyvəndlənməyə çağırır.

Qeyd edək ki, üçüncü doza üçün Azərbaycanda təsdiq olunan bütün vaksinlər istifadə oluna bilər".

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 86 (5918) 12 oktyabr 2021-ci il | Qiyməti 30 qəpik

# İlham Əliyev: "Tuğ sanki Cənnət bir yerdir"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə Hadrut qəsəbəsində və Tuğ kəndində olub.**

**Adalet.az xəbər verir ki, dövlətimizin başçısı Tuğ kəndini gəzib və ictimaiyyət nümayəndələri ilə söhbət edib.**

**(ardı 2-ci səhifədə)**

## Moskvada Azərbaycan, Rusiya və Ermənistan dini liderlərinin görüşü gözlənilir



**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə oktyabrın 11-14-də Rusiya Federasiyasında səfərdə olacaq.**

Qafqaz Müsəlmanları İdarəsindən Adalet.az-a verilən məlumata görə, səfər Moskva və bütün Rusiya Patriarxı Kirillin dəvətinə əsasən həyata keçirilir. Səfər çərçivəsində Şeyxülislam A.Paşazadə Patriarx Kirillə görüşəcəkdir. Moskvada, habelə, Azərbaycan, Rusiya və Ermənistan dini liderlərinin üçtərəfli görüşü gözlənilir.

**Qafqaz Müsəlmanları İdarəsi Moskva şəhərində Azərbaycanın Rusiya Federasiyasındakı səfirliyi ilə birgə azərbaycanlılar və digər dini konfessiya nümayəndələrinin iştirakı ilə Vətən müharibəsi şəhidlərinin anım mərasimini təşkil edəcəkdir.**

## UTANIM YERİNƏ, AY UTANMAYAN



**İrlandiyaya öz meydançamızda 0:3 hesabı ilə uduzan milli komandamızın baş məşqçisi De Byazi mətbuat konfransında əməlli-başlı azarkeşlərlə, jurnalistlərlə və ümumiyyətlə, xalqımızla məzələndi. Deyir ki, nəticəyə fikir verməyin, komandamız çox yaxşı oyun göstərdi. Əvvəla, futbol nəticəylədi. İkincisi də, De Byazinin komandası heç bir qəpiklik oyun da göstərmədi. Meydandakı idmançılarımız futbol yox, top-top oynayırdılar.**

Əslinə qalsa ayrı-ayrılıqda uşaqlar futbolumuzun ulduzlarıdı. Sadəcə olaraq, məşqçisiz oynayırdılar.

Biz orta məktəbdə oxuyanda idman müəllimimiz topu ortalığa atırdı ki, oynayın. Elə bil bizim idman müəllimimiz topu atmışdı ortalığa və bizimkilərə də deyirdi oynayın.

## QURBAN QURBANOVU NİYƏ MİLLİDƏN ÇIXARTDILAR?



**Azərbaycan futbolunu Foqts 5 il barmağına sarıdı, ona gözün üstə qaşın var deyən olmadı. İndi də De Byazi futbolumuzu barmağına sarıyıb, yəqin ki, ona da gözün üstə qaşın var deyən olmayacaq.**

Amma Qurbanı 6 ay işləməyə qoymadılar. Məcbur elədilər ki, istefa versin.

Əslində Qurbanın çıxarılmasının başqa səbəbi var. Təbii ki, bu mənim subyektiv fikrimdi, amma obyektivə yaxındı.

Qurbanı milliyə ona görə gətirdilər ki, "Qarabağ"dan çıxsın və "Qarabağ"ı da ya "Xəzər Lənkəran"ın, yaxşı halda, "Qəbələ"nin gününə salsınlar. Amma Qurban "Qarabağ"a xəyanət etmədi. Gördülər, yox, Qurbanı "Qarabağ"dan aralaya bilmədilər, Millidən yola saldılar.

**Əbülfət MƏDƏTOĞLU**
**madatoglua@mail.ru**



## Özünəqayıdışın başlanğıcı

### Mən o başlanğıcı 30 il gözlədim

*...Gözləmirdim...Amma içimdə bir gözlənti var idi... Gözləmirdim... Ürəyimdə isə bir işıq közərirdi...Gözləmirdim... amma özünü...Gözləyən kimi göstərirdim... Gözləmirdim... lakin gözləməyə də bilməzdim.*

*Bəli, bax bu hislərin içərisində məni o gözləntiyə, o gözləməyə kökləyən bir telefon zəngi oldu. Öncə yuxu kimi gəldi mənə bu zəng. Sonra mənə ərki çatanlardan kiminsə zarafatı kimi... Nəhayət, ən doğma, ən güvənli adamların zəngi təkrarladı o fikri, o deyimi. Və bütün bunlar məni gözləmədiyim, amma əslində hamıdan çox gözlədiyim günə gətirib çıxartdı. Onda bir daha ümidin ölmədiyinə, ölümsüz olduğuna, sadəcə dözüm tələb etdiyinə inandım, öz varlığıma inandığım kimi... sənin varlığına inandığım kimi... Allahın böyüklüyünə inandığım kimi!..*

*Məni kəndimə, doğulduğum ocağa, 30 il həsrətini yaşadığım, yuxularımda gördüyüm, xəyallarımda canlandırdığım, gözümün önünə gətirdiyim və hər dəfə də "Allah qoysa", "Qismət olsa", "İnşəallah" sözləri ilə diqqətə çatdırdığım Tuğa dəvət edirdilər. Daha doğrusu, məni ora aparan karvan məni də öz sırasında görürdü. Bundan böyük xoşbəxtlik, bundan böyük mükafat, bundan böyük sevinc ola bilməz!..*

*Mənə doğmalarım, dostlarım dedilər ki, ölkə prezidenti Hadruta və Tuğa səfər edəcək. Sən də orada cənab Prezidentlə görüşəcək nümayəndələr arasındasan...*

*(ardı növbəti nömrəmizdə)*

## Oxucuların nəzərinə

**Oktyabr ayından "Ədalət" qəzeti həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.**

## KƏNDDƏ FUTBOLA "SABAH"LA "KEŞLƏ"NİN OYUNUNDAN ÇOX AZARKEŞ GƏLMİŞDİ



**Ağcabədinin Hacılar kəndində Birinci Qarabağ savaşının şəhidi Elşən Rüstəmovun şərəfinə futbol yarışı keçirilir. Yarışda 8 kəndin idmançıları mübarizə aparır. Hətta Ağdamın Hacılara bitişik kəndlərinin futbolçularını da dəvət ediblər.**

Mən stadionda olanda Sarıcalı və Qaravəlli kəndləri yarışırdı.

İki maraqlı fakt. Birincisi, stadiona toplaşan azarkeşlərin sayı "Sabah"la "Keşlə"nin oyununa gələn tamaşaçılardan çox idi.

İkincisi, meydançanın otu payız olduğuna görə saralsa da, amma Tofiq Bəhramov adına stadiondan daha yaxşı vəziyyətdə idi.

Deyəsən, futboldan çox yazdım, qalanı qalsın sabaha.

## Laçında silah-sursat aşkar edilib

**Laçın RPŞ-nin əməkdaşları silah-sursat aşkar edib. DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Laçın Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş ərazilərdə döyüş sursatlarının aşkar olunaraq təhvil verilməsi istiqamətində mütəmadi profilaktiki tədbirlər aparılır.**

Laçın Rayon Polis Şöbəsinin əməkdaşlarının təhkim olunduğu Xocavənd rayonunun Üçtəpə adlanan ərazisində keçirilmiş növbəti tədbirlər zamanı tərk edilmiş hərbi mövqelərdən 1 avtomat, 3 müxtəlif növ pulemyot, 9 əl qumbarası, 11 avtomat darağı, 1 minaatanın nişangah qurğusu və 3500 müxtəlif çaplı patronlar aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## XX ƏSRİN ƏN BÖYÜK "CASUSU" ÖLDÜ



***Onu dünyada Doktor Xan kimi tanıyırdılar. Əsl adı isə Əbdül Qadir Xandır.***

***70-ci illərdə "İzvestiya" qəzeti Doktor Xan haqqında çox böyük bir məqalə dərc eləmişdi. Məqalənin adı belə idi: "Şpion veka". Ümumiyyətlə, həmin vaxtlar dünya mətbuatı hamısı Doktor Xana məqalələr həsr etmişdilər. Yadımda qalanlar odur ki, hələ orta məktəbi bitirdikdən sonra kollecdə, daha sonra universitetdə oxuyub fizika üzrə, daha sonra Almaniyaya köçüb. Və orada təhsilini davam etdirib və alman dilində doktorluq dissertasiyasını müdafiə edib. Daha sonra uran zənginləşdirilməsi üçün qaz santrifüjləri istehsal edən URENCO Avropa Konsorsiumunda işləyən Doktor Xan nüvə silahı, daha dəqiq desək, atom bombası hazırlayan zavodda fəaliyyətə başlayıb.***

**Bax: səh.2**

## GÜNÜN LƏTİFƏSİ

Sovet vaxtıdı, bir yəhudini KQB-yə satırlar ki, valyuta alveri ilə məşğuldu. KQB itli-pişikli tökülür yəhudinin mənzilinə, nə qədər axtarırlar heç nə tapmırlar, başlayırlar parketləri sökməyə.

Ordan da heç nə tapmırlar və görürlər ki, böyük bir qayka var.

Deyirlər, aha, burda nəsə gizlədib.

Başlayırlar qaykanı açmağa. Qayka açılanda böyük bir deşik yaranır, aşağıdan gur işıq vurur yuxarı, bərk tappıltı və səs-küy eşidilir.

Keqebeşnik:

**- Aha, bu nədi?**

Yəhudi:

**- Heç, mənzilimin altındakı konsert zalının lüstrünün qaykasını açdınız.**

# İlham Əliyev: “Tuğ sanki Cənnət bir yerdir”



(əvvəli 1-ci səhifədə)

**Prezident İlham Əliyev:** Tuğ kəndinə xoş gəlmisiniz.
**Sakinlər:** Çox sağ olun.
**Prezident İlham Əliyev:** Görün, nə günə salıblar.
**Sakin:** Bəli, bu bina 1961-ci ildə tikilib.
**Prezident İlham Əliyev:** Bu, mədəniyyət evi olub?
**Sakin:** Bəli, burada Ağa bəy Məlikaslanovun mülki olub.
**Digər sakin:** Çox gözəl asfalt yol da çəkilib, məəttəl qalası işdir, qısa müddətdə elə bil ki, biz başqa bir kəndə gəlmişik.
**Prezident İlham Əliyev:** Yox, hələ bu, müvəqqətidir. Əsaslı işlər bundan sonra görüləcək. Amma evləri görürsünüz, bütün evlər yarıdağılmış vəziyyətdədir.
**Sakin:** Bizim evi yandırıblar, o tərəfdədir. Azərbaycanlıların evlərini yandırıblar.
**Prezident İlham Əliyev:** Bu, məktəb olub?
**Sakin:** Bəli, məktəb, yanında da bağça.
**Digər sakin:** Cənab Prezident, mən bu məktəbdə oxumuşam. Bura da mənim babamın evidir. Baxın, bu həyət mənim babamındır. Buradan buraya məktəbə gəlmişəm. O da Sadıq bəyin evidir. Bu, Mahmud bəy Məlikaslanovun evidir.
**Prezident İlham Əliyev:** Hansı? Bu?
**Sakin:** Bəli, bu ev. Ermənilər onu sökməyiblər, yaşayırdılar.
**Digər sakin:** Cənab Prezident, burada məktəb 1885-ci ildə olub.
**Prezident İlham Əliyev:** Bilirəm, bu, qədim məktəbdir.
**Sakin:** Sizin Sərəncamınızla 2010-cu ildə məktəbin 125 illiyini qeyd etmişik. Məktəb işğal dövründə ermənilər tərəfindən dağılıb. Bayaq bir söz dediniz, burada bulaqlar da quruyub. Bax, bu bulaq quruyub.
**Prezident İlham Əliyev:** Hamısı quruyub.
**Sakinlər:** Bəli, bulaq var idi quruyub.
**Prezident İlham Əliyev:** Burada da bulaq var idi?
**Sakinlər:** Yuxarıdakı bulaq quruyub. Bunlar nə gündə yaşayıblar. İndi buna baxsınlar, təkcə ermənilər deyil, onları müdafiə edənlər də utansınlar.
**Prezident İlham Əliyev:** Elə mən də onu deyirəm. Buranın xüsusi bir iqlimi var. Buraya gəlirsiniz, heç bir səs də yoxdur. Mən birinci dəfə gələndə baxırdıq, tamaşa edirdik, quşlar oxuyur, güllər, sakitlik. Tuğ sanki Cənnət bir yerdir.
**Sakin:** Cənab Prezident, Siz abidələrə xüsusi diqqət yetirirsiniz. Xocavəndin bir hissəsində "Dədə Qorqud" dastanında adı çəkilən Qaraca Çobanın qəbri var. Qaraçuğ dağı var. Dastanda Salur Qazandan danışılanda "Qaraçuğun aslanı" adı keçir. Onun qəbri bu ərazidədir, Nərgiztəpədə. Onu qoruyub saxlamışdıq. O vaxt onları vermədik.
**Prezident İlham Əliyev:** O bizdədir.
**Sakin:** Ulu Öndər saxladı, 1994-cü ilə aprel ayının 10-da. Çox müqəddəs gün idi.
**Prezident İlham Əliyev:** Bilirəm, gəlmişik.
**Qadın sakin:** Cənab Prezident, buranı qədim irs kimi qorumaq lazımdır.
**Prezident İlham Əliyev:** Tuğun, ümumiyyətlə, bərpa konsepsiyası ayrıca hazırlanır. O, sonra təqdim olunacaq. Bütün bunları da dağıdıblar. Yəqin bunlar azərbaycanlıların evləri olub.
**Sakinlər:** Azərbaycanlıların evləri idi. Dağılan evlərin hamısı azərbaycanlılarındır. Cənab Prezident, bu aşağıdakı ev mənim müəllimimin evi idi. Həmin müəllim sovet-alman müharibəsində döyüşmüş, partizanlara qoşulmuş, haqqında hətta Fransa Prezidentinin məktubu, təşəkkürnaməsi olan bir müəllim idi.
**Prezident İlham Əliyev:** Məktəb aşağıdakıdır? Sonra tikilmişdi.
**Sakin:** Ulu Öndər 1969-cu ildə gələndən sonra keçmiş Dağlıq Qarabağın bütün Azərbaycan yaşayış məntəqələrində ən müasir tipli məktəblər, mədəniyyət evləri tikilib. Ona qədər məktəblər çox bərbad vəziyyətdə idi.
**Digər sakin:** Üzr istəyirəm, cənab Prezident. Mən şairəm və Siz mənə "Azərbaycanın Əməkdar jurnalisti" adını vermisiniz. Mənim bu günlərdə yazdığım şeirin son bəndi belədir:

***Güldü nəmlə dolub qəmli baxışlar,***
***Yaşadıq Zəfərin biz hər bir anın.***
***Bu gün dilimizdən qopan alqışlar,***
***Sizə duasıdır Azərbaycanın!***

**Prezident İlham Əliyev:** Çox sağ olun. Gəlin şəkil çəkdirək.
**Sakin:** Möhtərəm Prezident, fikir verirsiniz, bax, o üstdəki ev təzə tikilib.
**Prezident İlham Əliyev:** Bəli.
**Sakin:** Qıraqdakıların hamısını xaçlarla dəyişdiriblər. O köhnə daşlarla uyğun gəlmir. Fikir verirsiniz?
**Prezident İlham Əliyev:** Hünərli kəndindəki, keçmiş Çakuri kəndindəki kilsəni, həmçinin. Onlar onun giriş hissəsini yeni daşlarla "bəzəyiblər", hamısı da saxta.
**Sakinlər:** Tarixboyu elə ediblər. Ancaq bunu sübut etmək çox da çətin deyil, şəkillər var.
**Prezident İlham Əliyev:** Alimləri, beynəlxalq ekspertləri gətirəcəyik.
**Sakin:** Təşəkkür edirik. Lahıc çox gözəl bərpa olunub, bir muzey kimi bərpa olunub.
**Prezident İlham Əliyev:** Basqal kəndi də qədim kənddir. Mən göstəriş vermişəm, xüsusi Sərəncam da imzalandı. Ora da belə tarixi-mədəni abidə kimi qorunacaq. Tuğ da o səviyyəli, yəni, tarix baxımından çox qədim və önəmli bir yerdir.
**Sakin:** Baxın, buradan bizim o məzarlıqda ağac görünür, o ağacın altında "Qarabağnamə"nin ilk müəlliflərindən biri Mirmehdi Xəzani dəfn olunub.
**Prezident İlham Əliyev:** Ora qəbiristanlıqdır?
**Sakin:** Bəli. Azərbaycanlıların qəbiristanlığıdır. Cənab Prezident, biz təxminən iki ay əvvəl orada olduq. Bizim dədə-baba qəbirlərimizdən heç nə qalmayıb. Daşların hamısını götürüb aparıblar, çətin tapırdıq. Şükür Allaha ki, Mirmehdi Xəzaninin məzarı hələ qalıb.
**Prezident İlham Əliyev:** Yəqin ki, sonra burada istehsalat sahələri də yaradılacaq - təmiz su istehsalı. Bu tarixi binaların hamısı konservasiya olunacaq. Yol da çəkilir, hava limanı da var.
**Sakin:** Gözəl yollar çəkilir.
**Prezident İlham Əliyev:** Burada turizm yerləri, sanatoriyalar yaradılacaq. Cənnət kimi bir yer olacaq. Görəcəklər ki, torpaq sahibinin əlində olanda cənnətə dönür.
**Sakin:** Buraya çoxlu insanlar gələcək. Bu, elə-belə kənd deyil. Buradan çıxan adamlar çoxdur. İşğala qədər Tuğun əhalisi 4800 nəfər olub. Sizə deyim ki, bəlkə də bir üç o qədər də buradan xaricə gedib. Özü də buranın camaatı da çox savadlı olub.
**Prezident İlham Əliyev:** Savadlı insanlar olublar. Mədəni mərkəz olub. Adi kənd deyil, tarixini bilirəm.
**Sakin:** Buranın tutu Şax tut adlanır. Bu tutun çox nadir, müalicəvi təsiri var.
**Prezident İlham Əliyev:** Ümumiyyətlə, bu bölgənin xüsusi təbii gözəlliyi və saflığı var. Məsələn, yəqin ki, görmüsünüz, Kəlbəcərdə mənə iki pətək bal bağışladılar. Təbii çiçək qoxusu verir. Necə deyərlər, nadir təbii bərəkət var. Sudur, havadır.
**Sakin:** Fəxr edirdik ki, bizim Prezidentimiz ensiklopedik məlumata malikdir. Biz fəxr edirik ki, xarici jurnalistlərlə onların öz dilində onlardan da yaxşı danışırsınız. Rəhmətlik Heydər Əliyev çıxış edirdi, - Allah ona qəni-qəni rəhmət eləsin, - mənim anam bütün günü ona baxırdı. Deyirdi ki, çox savadlı, həm də yaraşıqlıdır. İndi Sizin o çıxışlarınız, duruşunuz, qəhrəman cüssəniz millətə ümid verir, onu yaşadır.
**Prezident İlham Əliyev:** Sağ olun, salamat qalın, tez-tez görüşəcəyik burada. Tədbirlər çox olacaq, açılışlar çox olacaq, görüşəcəyik sizinlə.
**Sakinlər:** İnşallah, sağ olun, var olun. Allah Sizə cansağlığı versin. Çox sağ olun.

# Siyasi partiya rəhbərləri Şuşada

**Son vaxtlar Prezident Administrasiyasının Siyasi partiyalar və qanunveric orqanlarla iş şöbəsinin müdiri Ədalət Vəliyevin rəhbərliyi ilə ölkədə fəaliyyət göstərən siyasi partiyalarla mütamadi əlqələr yaratması, onların siyasi durumla bağlı irad və təkliflərini dinləyərək gələcək münasibətlərin qurulması üçün çox işlər görülür.**



Bu günlərdə siyasi partiya rəhbərlərinin, həmçinin tanınmış politoloq və siyasi şərhçilərin Şuşa şəhərinə təşkil olunan səfəri də bu qəbildəndir. Prezident Administrasiyasının siyasi partiyalar və qanunverici orqanlarla iş şöbəsinin rəhbərliyi ilə Mədəniyyət Mərkəzi Şuşaya təşkil olunan səfər, səfər iştirakçələrında geniş təssüratlar yaradıb.

Səfərdən sonra ölkə mətbuatı və sosial şəbəkələr vasitəsi ilə fikitlərini bölüşən partiya rəhbərləri, bu səfərdən məmun qaldıqlarını bildiriblər.

**”Ədalət” partiyası sədrinin siyasi məsələlər üzrə müavini Elxan Şükürlü** qeyd edib ki, ”Şuşadayıq, düşməni sınmağa və təslim olmağa məcbur etdiyimiz, səsi sorağı artıq bütün dünyaya yayılmış o əzəmətli Qalada... Bu gün Prezident Administrasiyasının Siyasi partiyalar və qanunverici orqanlarla iş şöbəsinin təşkilatçılığıyla Şuşaya səfərimiz zamanı bir daha əmin oldum ki, Silahlı Qüvvələrimizin milli şərəf və qeyrət hissiylə, böyük vəsarətlə və Şəhidlərimizin qanıyla əldə etdiyimiz misilsiz qələbəmizi qoruyub saxlamaq vəzifəsi bundan sonra daha çox həm də bizim - iqtidarlı- müxalifətli betün siyasi təşkilatların üzərinə düşür”.

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev** sosial şəbəkədə yazır: ”Şuşa bizi başı dumanlı, çənli, tərtəmiz havası, özünəməxsus yapısı və qüruru ilə qarşıladı. Şuşanın ərazisi böyük deyil, amma mahiyyəti, onəmi, cazibəsi çox böyükdür. Həm də strateji baxımdan çox əhəmiyyətli simvoldur. Uğrunda ölmək, düşmənləri öldürmək də şərəf işidir. Allah millətimizə güç versin”.

**Ağ Partiyanın başqanı Tural Abbaslı** da səfər təssüratlarını sosial şəbəkədə paylaşıb: ”Uğrunda nə canların fəda edildiyi, torpağına müqəddəs şəhidlərimizin qanı qarışmış, başı dumanlı Şuşamızı ziyarət etdik.

Allah bütün şəhidlərimizə rəhmət etsin, qazilərimizə, veteranlarımıza və Şanlı Ordumuza can sağlığı nəsib etsin. Dumanlı Şuşa yüksəkliyindən Bakıda kiçik ”siyasi oyunlar” çox mənasız görünürdü.

**”Real” partiyasının sədri İlqar Məmmədov,** Şuşaya daxil olarkən çox sevinib: ”Şuşanın azad olunmasından cəmi bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, burada nəzərə çarpacaq dərəcədə işlər görülür. Bular bizə əlavə sevinc bəxş edir...”

”Təssüratım İlk növbədə, Şuşada ola bilməkdən və Şuşanı ziyarət etməkdən, torpaqlarımızı azad edən əsgərlərimizə, şəhidlərimizə minnətdarlıq hissindən ibarətdir”- deyə bildirən Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn, daha sonra bildirib ki, ” Şuşa o qədər də ermənilərin işğal etdiyi digər yaşayış məntəqələrindən fərqlənmir. Bu 30 ildə Şuşada abadlıq-quruculuq işləri aparılmayıb. Şuşa necə deyərlər, elə dağıla-dağla gedirmiş Şuşa özü də azad olunmağa həsrət imiş ki, o yenidən qızsın, nəfəs alsın. Demək olar ki, Şuşa indi yaşamağa başlayır”.

**”Ümid” partiyasının sədri İqbal Ağazadə** Şuşaya Azərbaycanın başqa şəhərlərindən, hətta işğaldan azad olunmuş doğma Füzuli şəhərindən bir az fərqli baxdığını bildirib: ”Şuşa Azərbaycanın simvoludur... Dumana görə Şuşanın gözəlliyini ilk dəfə orada olanlar təssüf ki, görə bilmədi. Amma Şuşanın gözəlliyi tamam fərqli bir şeydir. Şuşa artıq Azərbaycanın nəzarətindədir”.

İnanırıq ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunverici orqanlarla iş şöbəsinin müdiri Ədalət Vəliyevin rəhbərliyi ilə, ölkədə fəaliyyət göstətən siyasi partiyaların bir araya gəlməsi bundan sonra da mütamadi olaraq davam edəcək.

Şuşa səfərində 43 siyasi partiyanın 55 mümayəndəsi ilə yanaşı tanınmış politoloqlar və siyasi şərhçilərdə iştirak ediblər.

**Rüstəm Hacıyev**

# MDB Daxili İşlər Nazirləri Şurasının iclası keçirilib

**Oktyabrın 11-də Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının onlayn formatda növbəti iclası keçirilib.**

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, tədbirdə üzv dövlətlərin Daxili İşlər nazirliklərinin əməkdaşlığının prioritet istiqamətləri və cinayətkarlıqla mübarizədə dövlətlərarası proqramların icra vəziyyəti barədə ümumi fikir mübadiləsi aparılıb, Şuranın terrorizm, ekstremizm, narkotrafik, mütəşəkkil cinayətkarlıq və insan alveri ilə mübarizədə geniş və əhatəli iş apardığı, qurumun MDB məkanında təcrübə və informasiya mübadiləsi istiqamətində də səmərəli fəaliyyət göstərdiyi vurğulanıb.

İclasda çıxış edən Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov gündəlikdəki bütün məsələlərin aktuallığını, onların daxili işlər orqanlarının qarşısında duran, günümüzün reallıqları ilə uzlaşan vəzifələrə uyğun olduğunu qeyd edib, müzakirələrin əməkdaşlığın daha da intensivləşməsinə və genişləndirilməsinə yeni impuls verəcəyinə əminliyini bildirib.



V.Eyvazov qeyd edib ki, 2019-2021-ci illər ərzində Birlik üzvü olan ölkələrin DİN-lərinin aidiyyatı qurumları tərəfindən sıx işbirliyində yüzlərlə ağır cinayətlərin üstü açılıb, çoxsaylı mütəşəkkil transmilli kriminal qruplar zərərsizləşdirilib, təhlükəli cinayətkarlar tutularaq ekstradisiya olunub. Birlik çərçivəsində tərəfdaşlığın kifayət qədər yüksək səviyyədə olduğunu qeyd edən nazir son iki il ərzində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə təxminən 4,5 ton narkotik vasitənin müsadirə edilməsinin Azərbaycan hüquq mühafizə orqanlarının bu istiqamətdə barışmaz mövqe sərgilədiyinin əyani sübutu olduğunu bildirib.

General-polkovnik V.Eyvazov son illər ölkəmizdə cinayətkarlıqla aparılan qətiyyətli mübarizənin müsbət nəticələri, ümumilikdə cinayətlərin, o cümlədən ağır və xüsusilə ağır cinayətlərin açılması, azalma tendensiyası, dövlətlərarası axtarışa verilən təqsirləndirilən şəxslərin tutulması, əlverişli kriminogen durum, ictimai asayişin qorunması sahəsində həyata keçirilən tədbirlər barədə danışıb, transmilli mütəşəkkil cinayətkarlığın yeni təhdid və çağırışlarına birgə səylərlə cavab verilməsinin zəruriliyini diqqətə çatdırıb.

**Dostluq və konstruktiv əməkdaşlıq şəraitində keçən toplantıda planlaşdırılan bütün məsələlər üzrə müvafiq qərarlar qəbul edilib.**

# İranın Azərbaycana aqressiyası

## Xarici siyasi ekspertlər nə düşünür?

**Son günlər İran İslam Respublikasının Azərbaycana qarşı apardığı siyasət , daha doğrusu aqressiya bir çox siyasi ekspertlərin diqqətini çəkib.**

Adalet.az xəbər verir ki, ***ukraynalı politoloq Aleksey Voronenko*** məsələ ilə bağlı fikir bildirərkən bu sözləri dilinə gətirib:"Heç nəyə baxmayaraq İran hadisələrin gedişatını hərbi münaqişəyə doğru yönəltməyə davam etsə, Azərbaycan Tehrana düşünmək üçün 1 həftə vaxt verəcək. Əgər bu da bəzi başbilən mollaların ağlını başına gətirməsə, Bakı İranı dördbir tərəfdən hədəfə alacaq. Hazırda Azərbaycanın əlində olan "kozır"lar demək olar ki, heç kimdə yoxdur. Birincisi və ən əsası gücünü bütün dünyaya yetərincə Qarabağda göstərə bilən elə Azərbaycanın öz qalib ordusu, digər tərəfdən dünyanın aparıcı güclər arasında yer aldığı Türkiyə ordusu, bir tərəfdən İsrail, bir tərəfdən də "İranı bəyənməyənlər koalisiyası". Onu da qeyd edək ki, hazırda bu "formal koalisiyaya" onlarla güclü dövlət daxildir.

"Artıq düşünmək belə istəmirəm ki, bu, İran üçün nə demək olar. Bunu hazırda Tehranda oturanlar da çox gözəl anlayır və sözsüz ki, biz yaxın günlərdə İran hakimiyyət qüvvələrini təmsil edən şəxslərin dilindən yumşalmış ritorikanın şahidi olacağıq. Bu bir narazılıq siqnalı idi, İran çox gözəl anlayır ki, Bakının arxasında bütün dünya durduğu zaman, onların arxasında qorxudan titrəyən Ermənistan gizlənir", - deyə həmsöhbətimiz qeyd edib.

***Rusiyalı tarixçi və siyasi analitik Oleq Kuznetsov*** isə düşünür ki, bu dövlət növü üç nəsil üçün nəzərdə tutulmuş təbii mövcudluq siklinə malikdir:"Babalar inqilabi ideologiya ilə silahlanaraq dövlət yaradırlar. Onların uşaqları körpəlikdən bu ideologiyanı qəbul edərək, inersiya üzrə gücləndirməyə davam edirlər. Lakin babaların inqilabi ideologiyasının təsirinə məruz qalmadan böyümüş nəvələr bu dövləti əvvəlki kimi saxlaya bilmirlər. Buna görə də belə dövlətin ömrü uzun deyil - cəmi 40-50 il. Deməli, hazırkı İran qürubuna yaxınlaşıb.



Mənə deyə bilərlər ki, guya SSRİ bu müddətdən artıq, yəni 70 il, yaxud dörd nəsil boyunca mövcud olub. Burada unutmaq lazım deyil ki, bu dövlət İkinci Dünya müharibəsi adlı kataklizmə cəlb edilmişdi. Proletar inqilabçı leninçilərin nəvələri dissident "altmışıncılar" idi, onları da döyüşçülər -müharibənin qalibləri əvəz etdi. SSRİ-ni qaliblərin nəvələri və inqilabçıların nəticələri dağıtdı. Beləliklə əsas ideoloji şüar "dünya inqilabından" "Böyük Vətən müharibəsində qələbəyə" dəyişdirildi". Kuznetsovun sözlərinə görə, bu gün İran nəsillərin təbii dəyişməsi anına yaxınlaşır, molla babalar və onların general SEPAH-çı övladları öz potensiallarını artıq tükəndirib, ayətullah nəvələrinin nəsli gəlir. Ona görə də İran tarixi dəyişikliyə məhkumdur.

***Rusiyanın Müasir dövlət İnkişaf İnstitutunun direktoru Dmitri Solonnikov***un fikrincə , "Tehranla Bakı arasındakı gərginlik, əslində, digər "qırmızı nöqtələr" sayılan İran - Türkiyə, İran - İsrail ilə bağlıdır. Azərbaycan isə bu vəziyyətdə həmin problemli nöqtələr arasında qalıb. İran ambisiyaları hər zaman özünü göstərir.

İran öz həyati vəzifələrini yerinə yetirmək üçün riskə getməyə hazırdır. Tehran hakimiyyətinin atdığı bugünki addımlar Cənubi Qafqazda sülhə doğru hərəkəti ləngitməyə hesablanıb", - deyə o qeyd edib.

***Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Orta Şərq Mərkəzinin eksperti İrina Fyodorova*** da düşüncələrini deyib: "Düşünürəm ki, İran rəsmilərinin səsləndirdiyi sərt bəyanatlar, ilk növbədə, daxili auditoriyaya hesablanıb. Çünki hamı yaxşı başa düşür ki, münaqişə heç kimə lazım deyil. İran, sadəcə, münaqişə aparacaq halda deyil. Bu İranın bölünməsinə gətirib çıxara bilər.

"İlin əvvəlində İranın əvvəlki hakimiyyəti özünü bir qədər fərqli aparırdı. Xarici işlər naziri Cavad Zərif Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasından sonra regionun bütün əsas ölkələrinə "bəzi məqamları dəqiqləşdirmək" üçün səfər etdi. Nəqliyyat-iqtisadi əlaqələrin açılması əsasında çoxtərəfli əməkdaşlıq meydanı ideyası müzakirə olundu. Deyilirdi ki, əməkdaşlıq hamı üçün vacibdir. Əlbəttə ki, Azərbaycanla İran arasındakı münaqişə regionda qarşılıqlı əlaqələrin qurulmasını əngəlləyəcək. Lakin nəticədə, qarşılıqlı fəaliyyətin çoxtərəfli formatı önə keçirəcək.

Çünki İranın başqa variantı yoxdur. Bu, yeganə variantdır ki, qarşılıqlı anlaşmaya gətirib çıxara bilər.

Bu münaqişənin uzunmüddətli və tutarlı nəticələri olmayacaq. Tərəflər razılığa gələcək", - deyə rusiyalı ekspert qeyd edib.

**Onun sözlərinə görə, nəzərə almaq lazımdır ki, Tehrana yeni hakimiyyət gələndə onların həm Ermənistanla, həm də İran daxilində güclü erməni diasporu ilə ciddi əlaqələri olub. Aydındır ki, Ermənistan İranı öz maraqları üçün istifadə etməyə çalışır..**

**Əntiqə Rəşid**

*Aqil ABBAS*

# XX ƏSRİN ƏN BÖYÜK "CASUSU" ÖLDÜ

*Onu dünyada Doktor Xan kimi tanıyırdılar. Əsl adı isə Əbdül Qadir Xandır.*

*70-ci illərdə "İzvestiya" qəzeti Doktor Xan haqqında çox böyük bir məqalə dərc eləmişdi. Məqalənin adı belə idi: "Şpion veka". Ümumiyyətlə, həmin vaxtlar dünya mətbuatı hamısı Doktor Xana məqalələr həsr etmişdilər. Yadımda qalanlar odur ki, hələ orta məktəbi bitirdikdən sonra kollecdə, daha sonra universitetdə oxuyub fizika üzrə, daha sonra Almaniyaya köçüb. Və orada təhsilini davam etdirib və alman dilində doktorluq dissertasiyasını müdafiə edib. Daha sonra uran zənginləşdirilməsi üçün qaz santrifüjləri istehsal edən URENCO Avropa Konsorsiumunda işləyən Doktor Xan nüvə silahı, daha dəqiq desək, atom bombası hazırlayan zavodda fəaliyyətə başlayıb. Və çox ağıllı və güclü yaddaşı olduğuna görə zavodun və bombanın sxemi olan otaqlara buraxılışı olan 4 nəfərdən biri kimi çalışırdı. Yəni nəsə bir rəqəmi dəqiqləşdirmək üçün göndərirmişlər həmin otaqlara, o da gedib rəqəmi dəqiqləşdirirmiş. Uzun illər işi bu olub.*



*Pakistanda Atom Enerjisinin Komissiyası 1956-cı ildə yaradılsa da elə bir nailiyyət əldə edə bilmirdilər.*

*1975-ci ildə Doktor Xan tətil zamanı istirahətə getdiyi ölkədən Pakistana qaçmışdı. Aeroportda onu Pakistanın o vaxtkı baş naziri və xüsusi xidmət orqanlarının rəhbərləri qarşılamışdı.*

*Yazırdılar ki, guya uranın zənginləşdirilməsi sxemini oğurlayıbmış. Əslində isə elə deyil.*

*Doktor Xan Baş nazirə hərbi salam verərək demişdi ki, zavodun da, bombanın da layihəsini gətirmişəm, beynimdədi.*

*Deməli, zavodun və bombanın layihəsi 50 cilddən ibarət imiş. Və bu boyda bir layihəni yaddaşına köçürübmüş. İnsanda belə bir yaddaş, dünyanı dəhşətə gətirmişdi. Ona görə də Doktor Xanı "Əsrin casusu" adlandırmışdılar.*

*Və qısa bir müddətdə Pakistan zavodu da tikdi, atom bombasını da yaratdı.*

*Atom bombası urandan hazırlanır. Təbii ki, Pakistanda da uran mədənləri yoxdur. Dünyada ən böyük uran mədəni Cənubi Afrika Respublikasındadı.*

*Həmin vaxt daha qəribə bir hadisə baş verdi. Cənubi Afrika Respublikasında mədənlərdən 20 ton uran oğurlandı. Sonra yazdılar ki, bu qədər uranı Cənubi Afrika Respublikasından Pakistan kəşfiyyatı çıxarıb və gizli yollarla ölkəyə gətirib.*

*Ən maraqlısı odur ki, belə bir alimi 2004-cü ildə həbs də eləmişdilər. Onu da qeyd edim ki, Pakistan ilk nüvə sınağını 1998-ci ildə keçirmişdi.*

*Pakistan bu gün dünyada nüvə silahına malik olan yeganə müsəlman dövlətidi.*

*Yeri gəlmişkən, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev sonuncu prezident seçkilərində namizəd kimi çıxış edərkən demişdir ki, prezident seçilərəmsə Pakistandan iki atom bombası alacam. Amma seçilə bilmədi deyin, atom bombasız qaldıq.*

*Bu yazdıqlarım film deyil, amma deyəsən (mən baxmamışam) Doktor Xan haqqında film çəkilib.*

*Oktyabrın 10-da Doktor Xan 85 yaşında Tanrıya qovuşdu. Yeri behişt olsun.*

# “İran açıq qarşıdurmaya getməyəcək”



**Beynəlxalq məsələlər üzrə siyasi şərhçi Əziz Əlibəyli İranın Zəngəzur dəhlizi ilə bağlı Türkiyə və İranla qarşıdurmaya gedəcəyini istisna edib. Onun fikrincə bu cür məhəlli siyasətçilərin ağlı ilə kimsə hərəkət etməyəcək.**

"Zəngəzur koridorunun açılması ilə Naxçıvanın Azərbaycanla torpaq yol birliyinin təmin olunması görünür, bir çoxlarının gözündə tarixən ayrı salınmış, əslində hüquqi cəhətdən olmasa da, gerçəkdə parçalanaraq bir-birindən uzaq salınmış, bir millətin arasına digər dövlətlərdən divar və sərhədlər çəkmə siyasətinin də aradan qaldırılmasına dərin möhkəm zəmin hazırlayır, azərbaycanlıların bir xalq kimi gücünün artdığını hesablamağa səbəb olur. Qələbənin cazibəsi bundadır! Bu isə indiki qorxuların əsas səbəbidir. Halbuki qərbli-şərqli Zəngəzurun öz tarixi vahidliyini bərpa etməsi, təkcə Azərbaycanın deyil, Rusiya və Türkiyənin də razılığına, istəyinə və razılaşmalarına daxil olduğundan İranın geosiyasi qazanclarının ziyan çəkdiyini deyərək, faktiki Rusiya və Türkiyə ilə açıq qarşıdurmaya gedəcəyi istisna olunur.Həqiqətənmi bu mövqe ilə Suriya və digər ölkələrdə üçtərəfli razılaşmada olan bu üç dövlətin birliyini dağıtmaq İrana lazımdır?Halbuki Rusiyanın Qafqazları Qərb və İranla deyil, məhz Türkiyə ilə birgə nüfuz dairələrinə bölmək istəməsi iranlı siyasətçilərin etirazlarını Kremlə çatdırmağı tələb edir.Bu halda nə edəcək, Azərbaycan üzərində iki yüz ildən sonra Rusiya-İran müharibəsini çıxarmaq istəyən məhəlli siyasətçilərin ağlı iləmi hərəkət edəcəklər?"

**Emin Piri**

# ÜST-dən şad xəbər: Pandemiya tezliklə bitəcək

**Bəşəriyyət COVİD-19-la mübarizə yolunun təxminən 60 faizini keçib. Bunu Ümumdünya Səhiyyə Təşkilatının baş elmi işçisi Sumya Svaminatan deyib.**

Svaminatan pandemiyanın tezliklə bitəcəyinə və insanların normal həyata qayıdacağına inandığını vurğulayıb. Bu kontekstdə o, əhalini virusun mutasiyasından qorunmaq üçün peyvənd prosesini sürətləndirməyə çağırıb. ÜST-ün məlumatına görə, pandemiya başlayandan bəri dünyada 236 milyondan çox koronavirus infeksiyasına yoluxma halı qeydə alınıb. İnfeksiya 4,8 milyon insanın ölümünə səbəb olub.

**MEHRİBAN**

# İt demə, o dəxi bizim birimiz...

**...Gör nə günə gəlib çatdıq ki, bu gün bir çox mollalar millətə, xalqa, camaata ağıl öyrədir, yol göstərir. Hansı ki, o mollaların özünə ağıl öyrətmək, yol göstərmək lazımdır. Çünki heç kəsə sirr deyil ki, istər məmləkətimizdə olsun, istərsə də başqa yerlərdə mollalıq edənlərin çoxu cəhaləti, nadanlığı və fanatizmi təbliğ edirlər. Ən azından ona görə ki, onlara qaranlıq mühit, cahil insanlar və bir də öz maraqlarını təmin etmək daha maraqlıdır...**

...Bir dəfə bir yas məclisinə getmişdik. Rəhmətə gedən də çox varlı adam idi. Heç oğlanları da ondan geri qalmırdı. Yəni vardövlət başlarına aşırdı. Gördüm ki, məclisdə düz altı molla ağız-ağıza verib ağızlarına gələni oxuyurlar. Yanımdakı dostum ərəbşünas idi, "Quran"ı da çox gözəl bilirdi. Dedi ki, mən baş açmıram, bu varlı adam bir savadlı axund, molla tapmırdı ki, dədəsinə "Quran" oxutdursun. Soruşdum ki, bəs bu altı mollanın heç olmasa biri düz oxumur? Dedi, heç biri ərəb dilini bilmir. Sadəcə olaraq bizim əlifba ilə o sözləri yazırlar və mənasını da bilmədən oxuyurlar...

...Tay bir söz demədim. Matım-mutum qurudu. Sonra da öyrəndim ki, həmin varlı adam bir gün məclisi aparan o mollanın hər birinə 200 manat pul verib...

...Biz görmüşdük ki, hansısa varlı adam övladına toy edəndə 5-6 müğənni gətirir və 5-6 müğənninin də təbii ki, haqqı ödənilir. Amma onlar toyda bir-birinin bəhsinə az qala canlarını qoyurlar. Və hər cür mahnı ifa edirlər. Görünür, bəzi pullu adamların imkanı olsa da, dini dünyagörüşü və savadsızlığı onun başına oyun açır. Söhbət mollanın çoxluğu və azlığından getmir. Söhbət ondan gedir ki, son vaxtlar ölkəmizdə də yağışdan sonrakı göbələk kimi savadsız və cahil mollaların sayı daha da çoxalıb. Onlar kənd yerlərində və qəbiristanlıqlarda əməlli-başlı lövbər salıb və yaxşı da pul qazanırlar. Qəbiristanlıqda durub müştəri gözləyən bir molla ilə söhbət elədim. Dedi ki, mən savadsız adamam və ölü götürməyi də bacarmıram. Elə qəbiristanlıqda durub gözləyirəm, bir də görürəm ki, biri böyürdən çıxdı, istədi dədəsinə bir "Yasin" oxutdursun. Mən də o "Yasin"i oxuyuram. Bu ölü götürməkdən daha asandır.

Bir çox mollalar isə qonşu ölkənin təsiri altına düşür. Heç özü də bilmir ki, nə istəyir. Və ən qəribəsi də odur ki, bu cür mollalar düşünürlər ki, nəyin bahasına olursa-olsun, hardan bir şey qoparacaqlar. Onlar üçün nə Allah, nə peyğəmbər, nə də "Quran" anlayışı var. Onlar üçün bir anlayış var - pul qazanmaq.



Və o pulu da çox asanlıqla qazanırlar...

...Harda ki, ziyalı sözünü demir, elm adamları çəkilir durur qıraqda, savadlı adamlar susurlar və görürlər ki, məclisdə molla ağzına gələni danışır, bax, onda da cəhalət, nadanlıq bir az da inkişaf edir. O cəhalət və nadanlıq ki, nə ilahiyyətdən, nə dindən, nə də dünyəvi elmlərdən xəbəri olmayan cahillər məclis aparır. Həmin mollaları araşdırsan görərsən ki, onların heç birinin dini savadı yoxdur. Ya keçmişdə hansısa dələduzluqla məşğul olub, ya da türmədən çıxıb, özünü mömin bəndə kimi təqdim edərək camaata moizə oxuyur. Bax, bu bizim ən ağrılı, ən zəif yerimizdir...

...Bizim millətin böyük ziyalıları Mirzə Cəlil, Mirzə Ələkbər Sabir, Seyid Əzim Şirvani bu cür dələduz, fırıldaqçı, millətə cahilliyi və nadanlığı təbliğ edən mollaların iç üzünü açıb, ifşa edib.

Amma nədənsə məmləkətimizdə son illər belə mollalar çoxalsa da, nə ziyalı təbəqə, nə də mətbuatda cəhaləti təbliğ edənlərin maskası yırtılmayıb və onlar da görür ki, balam, dərəbəylikdir, öz əməllərini yorulmadan davam etdirirlər.

***Heç Seyid Əzim Şirvaninin təsvir elədiyi mollalarla bugünkü bəzi mollalarımız arasında heç bir fərq yoxdur. Biri deyir ki, 200 manat ver, gəlim rəhmətə gedəni yerdən götürüm, biri deyir ki, 300 manat ver, gəlim məclisi aparım, biri də deyir ki, özünüz bilirsiniz, mən savadlı adamam, haqqım da yüksəkdi. İndi gəl belə mollalardan baş aç görüm necə açırsan. Heç əvvəlki mollalarla indiki mollaların tamahları da dəyişməyib.***

Seyid Əzim Şirvani o mollaların iç üzünü çox gözəl açıb. "Köpəyə ehsan" satirasında bir varlı adamın iti ölür, o da iti kəfənləyib qəbiristanlıqda dəfn elətdirir. Bunu eşidən molla "vay-veylə şəriət əldən getdi" - deyib, hücum çəkir həmin varlı adamın üstünə. Varlı adam gözü bərəlmiş və qızarmış mollaya diqqətlə baxır və deyir ki, ay kişi, bu it o itlərdən deyil ey, it vəsiyyət edib ki, mən sənə sürüdən 50 qoyun verim, üstəlik də ürəyin nə istəyir onu hədiyyə edim. 50 qoyun məsələsini eşidən kimi molla "val"ı dəyişir və deyir:

***İt demə, o dəxi bizim birimiz,***
***Belə ölmüşlərə fəda dirimiz...***

**...Bax, bu gün də yas məclislərində həmin mollaya bənzər mollalar az deyil. Onların maskasını açmaq, sifətini xalqa tanıtmağın vaxtı çoxdan çatıb. Əgər biz onların sifətindəki maskanı çıxarmasaq, ifşa eləməsək, onlar xarici qüvvələrin təsiri altında insanların beynini zəhərləyəcək, millətə cəhaləti, nadanlığı təbliğ edəcək. Ətrafınıza yaxşı baxın, görün, belə mollalar varmı? Varsa, sözünüzü deyin. Sözünüzü deyin ki, onlar da at oynatmasın və məclis iştirakçılarına nadanlığı və cahilliyi təbliğ eləməsin...**

**Faiq QİSMƏTOĞLU**

# Şəhid mərasimlərindən bəzi dindarlar istifadə edir

**"Vətən bağı" layisinin koordinatoru Emin Tarverdiyev şəhidlərin il mərasimlərində bəzi dindarların fürsətdən etdiyini bildirib. Onun sözlırinə görə həmin dindarlar yas mərasimindən istifadə edərək din altında öz təbliğatlarını aparırlar.**

"Artıq sentyabrın 27dən İkinci Qarabağ savaşında şəhid olan igidlərimizin il mərasimləri baş tutur. Mümkün qədər vəfa borcumuzu ödəməyə çalışırıq. Bunu ən çox istəyənlər isə şəhid valideynləridi. Mən bu işi sonlandırdım. Yaşım 40 olsa da, xeyli sayda il mərasimlərində olmuşam. Amma bu mərasimlərdə olanlar, vallah, hansısa qüvvələrin sanki kurasiyasındadı.

Artıq neçənci mərasimdi ki, "məddah" adlandırdıqları dindarlar mərasimləri dini şoulara çeviriblər və davam edirlər.

Biz həmin il mərasimlərində həmin ailələrin dərdinə şərik olmağa gedirik. Şəxsən həmin məddahların oxuduqları, danışdıqları mənə maraqlı gəlmir və maraqlı deyil. Bu səbəbdən də şəhid qardaşlarımızın il mərasimlərinə getməyi özümə qadağan edirəm.



Şəhidin adı üstündədi. Ləkə, çamur götürməz. Amma onların adından istifadə edib mərasimlərdə belə şouların düzənlənməsinə etiraz edirəm.

Onları ta il məclislərində yox, imkan olduqca başqa vaxtlarda ailələrini ziyarət etməklə yad edəcəm..."

**Emin Piri**

# Dediyim yalana özümdən başqa hamı inanırdı, deyə sarsılırdım

**Bu gündən başlayaraq, Vətən Müharibəsində gördüyüm ən xırda detalları belə unutmadan xatirələrimi yazacağam... Uzaq zaman deyil... Şahidlərimin hamısı sağdı.**

Səbirə xanım xanım, məni görəndə kövrəldi... Üst - başım toz - torpaq, saçlarım palçıqdan bir-birinə yapışmışdı. Üz- gözüm hisdənmi, tozdanmı rəngini dəyişmişdi... Görüşdük, Baş- gözümü yumaq üçün məni əvvəlcədən istilətdiyi hamama saldı. Ordan çıxanda süfrə artıq hazır idi. Qonaqpərvər ev sahibəsi Lyüdmilla Ələkbərova Səbirə xanımın "önəmli qonağını" razı salmaq üçün özünə xeyli əziyyət vermişdi.

Çörəyimizi yeyəndən sonra Qarabağın Həcərinin israrı ilə elə küçənin aşağısında olan gözəllik salonuna getdik. Saçımı darayıb formaya salan xanımın da zəhmət haqqısını Səbirə xanım ödədi. Gecəni Lyüdmilla xanımın və Həcərin qonağı olub, sabahısı Quzanlıya üz tutdum.

Yeri gəlmişkən, bu ağır zamanda Səbirə xanımın mənə göstərdiyi ana qayğısını heç unutmaram.

### *1 oktyabr*

Quzanlıda taksidən düşəndə "Zəfəran"aptekə girdim. İki "nimesil" sifariş etdim.. Əczaçı dərmanları mənə verib başqa müştərini dindirdi..

***-Ay qaqaş pulunu çıx də 2 "nimesil" 80 qəpik.***

***-Yox, mən dərmanları sizə hədiyyə edirəm...***

Yenə kövrəlirəm , yurdumuzun insanının geniş qəlbinə heyran oluram..

-Mən hədiyyə götürə bilmərəm.. Çox sağ ol, təşəkkür edirəm -deyib pulu qoyub dərmanları götürüb çıxıram.

Aptekin yanında meyvə mağazası var. 2 kq alma çəkdirirəm. Yaşlı kişi mehribanlıqla üzümə baxır, "komandir pul lazım deyil, qonaq ol"

***-Mən komandir deyiləm, jurnalistəm... pulum var.***

Çıxardıb, ötən gündən cibimdə qalmış yeganə 50 manatımı satıcıya göstərirəm.. Elə bilirəm, o gördüsə day heç kim mənə nəyisə hədiyyə etmək fikrinə düşməyəcək. Almaları "klok"a yığıb mənə verir. Mağazaların qarşısı ilə irəliləyirəm.

Yolda bir nəfər də qadın olmadığı diqqətimi çəkir.

Elə bu zaman bir Kamaz dolu əsgər maşını saxlayır. Bir anda elə bir küçədəkilərin arasına vəlvələ düşür. Əllərində tutduqları bağlamaları, çörəkləri, meyvələri, corab dəstlərini əsgərlərin oturduğu yük yerinə atırlar. O anda elə bil yarışmaydı...

Elə bil sıradan qalmaq, əsgəri sevmədiyin anlamına gəlir.. Əsgərlər bağlamaları, klokları yardım olaraq yox, qayğı, nəvaziş, sevgi olaraq görürdülər.. Camaatın bu hərəkətinə sadəcə şirincə-şirincə gülümsəyirdilər. Ağzımı ayırıb elə heyranlıqla baxırdım. Birdən elə bil məni "tok" vurdu." Başa düşmədim, mən kimin oğlundan əskiyəm ki," deyib alma "klok "unun ağzını büzüb- bağlayıb, atdım. İçəridən bərk gülüşmə qopdu, Yəqin kiminsə başına dəydi.

Xalqımız çox möhtəşəm bir xalqdı. O 44 günlük müharibədə boğazından, əynindən kəsdi, əsgərlərimizə sovqat göndərdi. Baxmayaraq ki, MN-yi ordumuzun təminatını artıqlaması ilə təmin etmişdi, camaat israrla payını əsgərlərlə bölməyi özünə borc bilirdi.

Həmin vaxt Bakıdan, Gədəbəydən və digər zonalardan gələn yardımsevərlərə yol göstərmək, sovqatı lazımı yerlərə çatdırılmasına yardımçı olmaq da boynumun borcu olmuşdu. Sabah Veteranı Qadınlarına Sosial



Yardım İB sədri Rada Abbas və birliyin üzvləri müharibə zonasına sovqat gətirəcəkdi. Ərazinin "yiyəsi " kimi onları qarşılamalıydım.

***Günortadan keçməsinə baxmayaraq atışma davam edirdi. Xüsusən Tərtər rayonu atəşlər içindəydi. Bərdədən gələndə 4 yol deyilən ərazi var. Yol Ağcabədi-Ağdam, Bərdə-Tərtər yolu kimi tanınır. Maşını saxlatdırıb, dəmiryola tərəf götürülürəm. Ora hündür olduğuna görə məqsədim ordan atışma ərazisini rahat seyr eləməkdi. Qışqırığa arxaya çönürəm. Hərbçilərin səsi oraları götürmüşdü: Ora olmaz, görürsən, dünən bax bura bir mərmi düşdü... Mərmi gəlib burda səni tutsa biz nə cavab vercəyik komandanlığa?Odey Tərtərin avtovağzalına düşüb, adam da ölüb... Nə isə məni "pişiyim-pişiyim" nən otuzdurdular maşına Sürücüyə isə əmrlə : Sür! - dedilər.***

Elə bilirdim hərbçilər məni yola vermək üçün elə dedi. Sən demə, olub. Bəli, sonradan öyrəndim ki, saat 09 radələrində Tərtər şəhər avtovağzalına düşmüş top mərmisinin qəlpələrindən 1982-cı il təvəllüdlü Həsənov Zabil Məhəmməd oğlu həlak olub, avtovağzala da ciddi ziyan dəyib..

Ən pisi o idi ki, Putinlə Makron birləşib müharibəni dayandırmaq istəyirlər. Atəşkəs olacaq -deyilirdi. Əynimdəki "press jilet"ə görə tanıyanda tanımayanda yaxınlaşıb bu şaiyənin gerçək olub olmaması ilə maraqlanırdılar.

Elə bil hamının üzərinə su çilənmişdi. İndi bu insanları necə sakitləşdirim deyə düşünüb ağlıma gələn fikirləri söyləməyə başladım: Siz heç narahat olmayın, bizimkilər onları qıcıqlandıracaq, onlar da axmaq şeylərdilər, atacaqlar, Aha, atəşkəs pozuldumu? Bizim ordunu saxlaya bilərlər?- deyib onları ruhlandırırdım.

Həqiqətən ovutmaq üçün dediyim fikirlər tam gerçək oldu. Vəssalam, özümü saldım işə.

İndi Əntiqə canın çıxsın cəbhəylə bağlı tam məlumatsız olan adamların suallarına cavab tap. Xüsusən balası çəbhədə olan, amma onlarla əlaqə yarada bilməyən valideynləri sakitləşdirmək çox çətin idi. Təsəvvür edin, bilirəm ki, Suqovuşanda ölüm-dirim savaşı gedir, itkimiz çoxdu. Gizlində ağlayıram, göz yaşımı saxlaya bilmirəm, amma oğlu Suqovuşanda döyüşən əsgər atasına- Elsevərə deyirəm ki, o tərəfdə döyüş yoxdu. əsas qüvvələr Füzuli tərəfdədi, döyüş ordadı. Oğlu Füzuli -Qubadlı tərəfdə olan valideynə - Ülviyyə xanıma da əksini deyirdim. İnanırdılar mənə... Bax ən çox bu duruma görə sstress keçirirdim. Onlar mənə özlərindən çox inanırdılar, mən onları aldadırdım...

### *2 Oktyabr*

***Yenə saat 05: 45 Saat 12 radələrində artıq Rada xanım və dostları Ağdama gətirdiyi xeyli sovqatla Muğam evinin qarşısındaydılar. Hesab edirdim ki, təmas xəttindən qaçıb Quzanlıda, Bərdədə məktəblərə sığınmış camaata paylanar. Amma bütün yardımın hamısı icra nümayəndəsinin təşkilatçılığı ilə Quzanlıda yerləşən, adı sovet dönəmindən "kolxozun anbarı" deyilən yerə boşaldıldı. Anbarda nə anbar. İçi dolu sovqat bağlamaları. Quzanlının lap yaxın məsafəsində Ağcabədiyə aid Taynaq kəndi var.***

***Anbarla oranın arası təxminən 1 km olar . Yük mikroavtobusdan yenicə yerə yığılmışdı ki, Taynağa 2-3 mərmi dalbadal düşdü. Səhv eləmirəmsə ya jurnalist Pərvin Abışova idi ya keçmiş döyüşçü Solmaz Əliyeva dedi ki, belə səsdə necə qalırsan?***

Yadıma düşmüşkən bir nüansı xatırladım, hələ ötən axşam yaxın rəfiqəm , şəhid Vasif Məmmədovun xanımı Ceyran Əzizova Rada xanım gillə gələcəyini demişdi.

Dönə-dönə soruşdu: Nəyin çatmır, de alım gətirim...

Bilirdi evdən hazırlıqsız çıxmışdım, amma boynuma almadım ki, qəndim bitib, quru çayın, vermeşilin sonudu.

Yardımı anbara töküb asvalta qədər onlarla gəldim. Avtobusdan düşəndə Ceyran xanım evlərindən mənim üçün bir zənbil ərzaq yığıb gətirmişdi. İçində qənd çay, konserva, vermeşil, makaron... Kövrəldim. Tələbə olanda anamın mənə göndərdiyi çantalar yadıma düşdü.

Artıq axşam düşürdü. Kafenin yanından burulub döngəmizə dönəndə evin birindən televizorunun səsi gəlirdi:

**"Bu gün Ermənistan silahlı qüvvələri Bərdə rayonunun Əmirli, Tovuz rayonun Ağdam və Ağdam rayonunun Quzanlı yaşayış məntəqələrini raket atəşinə tutub. Gün ərzində Tərtərə 2 mindən çox mərmi düşüb".**

**Əntiqə Rəşid**

### *Səkisiz küçələr*



***Bakıda elə küçələr var ki, orda piyadaların hərəkət etməsi üçün səki yoxdur. Səki də olmayanda piyadalar məcbur olub avtomobil yoluna çıxır və həyatlarını təhlükə qarşısında qoyurlar. Təbii ki, bu cür vəziyyət hər bir piyadanı hər gün olmasa da, tez-tez müəyyən çətinliklə üzləşdirir. Yəni o piyada məcbur olub yolun hərəkət hissəsinə çıxır və bəzi hallarda sürətlə gələn avtomobil yolun hərəkət hissəsi ilə gedən piyadanı vurur. Məsələn, Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsinin "D" massivindəki Abbas Fətullayev küçəsində piyadaların hərəkəti üçün səki inşa edilməyib. Bu isə o deməkdir ki, həmin piyadalar çox yox, yaxınlıqdakı poliklinikaya gedəndə məcbur olub avtomobil yoluna çıxırlar. Aydındır ki, bu cür hərəkət hər an onların həyatına bayaq dediyimiz kimi böyük təhlükə yaradır. Ona görə də həmin yol inşa edilərkən səki də tikilməli idi. Hələ də gec deyil. Əlaqədar qurumlar istəsələr həmin yolun təmiri zamanı səki də inşa edə bilərlər. Səkinin inşa edilməsi birmənalı olaraq bu küçədə piyadaların təhlükəsizliyini aradan qaldırar və onları gözləyən faciəli hadisədən xilas edər.***

***Emil FAİQOĞLU***

# DSX-dən İranın Sərhəd Qoşunlarının komandanına cavab

**Son günlərdə İran İslam Respublikasının (İİR) kütləvi informasiya vasitələrində dərc edilmiş müsahibəsində İİR Nizam İntizam Qüvvələrinin Sərhəd Qoşunlarının Komandanı general-mayor Əli Qüdərzi tərəfindən həqiqətə uyğun olmayan açıqlamalar verilib.**

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat Mərkəzinin məlumatına görə, Dövlət Sərhəd Xidməti rəsmi olaraq bildirir ki, Azərbaycan Respublikasının dövlət sərhədində hər hansı üçüncü dövlətin qüvvələri heç vaxt olmayıb, hazırda da yoxdur və bundan sonra da olmayacaq.

Azərbaycan Respublikası ərazisində xaricdən gəlmiş təqfirçilərin fəaliyyət göstərməsi, eləcə də üçüncü ölkələr tərəfindən Azərbaycan ərazisindən İrana qarşı kəşfiyyat məqsədilə istifadə olunması barədə iddialar yalandır və həqiqəti əks etdirmir.

Azərbaycan Respublikasının dövlət sərhədlərində, sərhəd mühafizə qurumlarında hər hansı xarici dövlətin qüvvələri, mütəxəssisləri mövcud deyil, Azərbaycan Respublikasının dövlət sərhədlərinin etibarlı müdafiəsi və mühafizəsi üçün ən müasir imkanlara malik olan Dövlət Sərhəd Xidmətinin xarici qüvvələrin dəstəyinə ehtiyacı yoxdur.

Ermənistan ilə dövlət sərhədində Görus-Qafan yolunun Azərbaycan Respublikası ərazisindən keçən hissəsində sərhəd və gömrük nəzarətinin tətbiq olunması Azərbaycan Res-



publikasının suveren hüququdur. Azərbaycan və İran sərhədçiləri arasında mütəmadi olaraq müxtəlif səviyyələrdə işçi görüşlərin keçirilməsinə və məlumat mübadiləsinin aparılmasına baxmayaraq, bu günədək Azərbaycan tərəfinə müsahibədə səsləndirilənlər haqqında ümumiyyətlə heç bir məlumat verilməyib, hər hansı fakt təqdim olunmayıb.

Hazırda İran İslam Respublikası ilə dövlət sərhədində əməliyyat şəraiti stabildir və Azərbaycan sərhəd mühafizə orqanlarının tam nəzarəti altındadır. Dövlət sərhədində Azərbaycan Respublikasının dövlət maraqlarına qarşı yönələn istənilən təxribatın qarşısı bundan sonra da qətiyyətlə alınacaqdır.

**Qeyd edilənləri nəzərə alaraq, İİR rəsmilərinə daha məsuliyyətli olmağı tövsiyə edir, onları yalan və böhtan xarakterli məlumatları yaymaqdan çəkinməyə çağırırıq.**

# "Hamilə qadınlardan COVİD pasportu tələb edilməsi məsələsinə aydınlıq gətirilməlidir"

**Peyvəndlərin vacibliyi hər kəsə bəllidir, xüsusən tədris müəssisələrində olan insanların peyvənd olunması mühümdür. Lakin xoş olmayan bir hal var ki, hamilə olan və ya uşağa süd verən ananın universitetə girişi üçün problemlər yaşanır.**

Adalet.az-ın məlumatına görə, bunu milli məclisin sədri Rəşad Mahmudov deyib.

R.Mahmudov bildirib ki, hamilə və ya uşağa süd verən anaın universitetə daxil olması üçün on-



lardan ya COVİD pasportu və ya ona əks sənəd tələb olunur: "Hamilə qadınlar və uşağa süd verən analar peyvənddən imtina etdiyi üçün onlara əks-göstəriş sertifikatı da vermək mümkün deyil və belə bir xoagəlmız hal yaranıb. Hətta tanıdığım bir şəxs bu problem səbəbindən tələbə hüququndan imtina edib .

Hamilə qadınların peyvənd olunmasına əks göstəriş yoxdur, amma onları məcbur da edə bilmərik. Ona görə də həmin insanların universitetlərə daxil olmaların üçün hansısa formada şərait yaradılmalıdır və ya bu anlaşılmazlıq vəiyyətə aydınlıq gətirilməlidir".

### *Merkel: İranla bağlı kritik həftəyə daxil oluruq*

**İranın nüvə proqramı ilə bağlı situasiya həlledici həftəyə daxil olur.**

Bu sözləri Almaniya kansleri Angela Merkel İsrailə səfəri zamanı yerli mediaya müsahibəsində deyib. "Biz İranın uranı necə zənginləşdirməsini müşahidə etdiyimiz zaman bu məsələ təxirəsalınmaz xarakter alır", - Merkel qeyd edib. O bildirib ki, İranla imzalanan nüvə sazişini heç vaxt ideal hesab etməyib, buna baxmayaraq, Tehranın nüvə silahı əldə etməsinə imkan verməmək üçün daha yaxşı yol yoxdur: "Danışıq aparılmayan hər gün İran uranın zənginləşdirilməsini genişləndirir. Bu öz-özlüyündə kritik situasiyadır. Bu məsələ ilə bağlı həlledici həftə gəlir. Hesab edirəm ki, əsas məsuliyyət Rusiya və Çinin üzərindədir".

**MEHRİBAN**

# Elnur Əşrəfoğlunu ECMO cihazından ayırıblar - Qanaxmaları çoxalıb...



**Koronavirusa yoluxan tanınmış Elnur Əşrəfoğlunu ECMO cihazından ayırırlar.**

Bu barədə Elnur Əşrəfoğlunun həyat yoldaşı məlumat verib. O bildirib ki, qanaxmalar çoxaldığı üçün onu ECMO cihazında saxlamaq mümkün olmur:

"Həkimlər indi əlaqə saxladılar. Dedilər ki, qanaxması dayanmır, bir yandan qan köçürülür, digər yandan isə ECMO cihazında olduğu üçün qanaxmalar çoxalır. Həkimlər vəziyyətini qiymətləndirib və qərar qəbul edilib ki, bu gün ECMO cihazından ayrılsın. Yəqin ki, bu dəqiqələrdə cihazdan artıq ayırırlar. Sadəcə olaraq hər kəsin dua etməsini istəyirəm. Allah kömək olsun bizə!".

Xatırladaq ki, koronavirusa yoluxan tanınmış jurnalist Elnur Əşrəfoğlu hazırda "Yeni Klinika"da ECMO aparatına qoşulu vəziyyətdə müalicəsini davam etdirir. Anası Zöhrə Hüseynova Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya müraciət edərək Elnur Əşrəfoğlunun müalicəsi ilə bağlı müvafiq köməyin göstərilməsini xahiş edib. Heydər Əliyev Fondu koronavirusa yoluxan tanınmış jurnalist, Azərbaycan Cüdo Federasiyasının baş katibinin müavini Elnur Əşrəfoğlunun müalicəsini nəzarətə götürüb.

**İLTİFAT**

### *İŞİD-in lideri Bağdadinin sağ əli yaxalandı*



***İraqın baş naziri Mustafa əl Kazımi İŞİD-in öldürülən lideri Əbubəkr əl Bağdadinin sağ əli olan Sami Cesimin tutulduğunu deyib.***

***Adalet.az xəbər verir ki, Kazımi Cesimin İŞİD-in maliyyə məsələlərilə məşğul olduğunu qeyd edib.***

***"İraq Təhlükəsizlik qüvvələri seçkiləri təhlükəsizlik şəraitində həyata keçirməyimiz üçün dostlarımız əməliyyat keçirib və İŞİD-in maliyyə işlərinə baxan Sami Cesimi yaxaladı. İraq və cəsur qəhrəmanlarımız çox yaşasın!" - deyə Kazımi tvitter hesabında paylaşım edib.***

***Eminquey***

# "Vətən Müharibəsi və ədəbiyyatda milli özünüdərk problemi" adlı kitabı çap olunub

**Vətən Müharibəsinin başlamasının bir illiyi münasibətilə Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, Azərbaycanda Atatürk Mərkəzinin elmi əməkdaşı, fəlsəfə elmləri doktoru, professor Rahid Uluselin "Vətən Müharibəsi və ədəbiyyatda milli özünüdərk problemi" adlı kitabı "Elm və təhsil" nəşriyyatı tərəfindən çap olunmuşdur.**

Rahid Uluselin dəyərli oxucularımıza təqdim olunan kitabı "Qalib Azərbaycanın qalib ədəbiyyatı" paradiqmasının konseptual əsaslandırılmasından ibarətdir.

Müəllif bu kitabında ilk dəfə olaraq Vətən Müharibəsinin ədəbiyyatda milli özünüdərketmə prosesini necə təsirləndirdiyini və onda hansı keyfiyyət dəyişikliyi yaratdığını araşdırır, Azərbaycanda dövlət və mədəniyyət quruculuğunun qarşılıqlı stimullaşma təkamülünü izləyir, öz siyasi tarixindən ayrılmaz olan bir ədəbiy-




yatın estetik mahiyyətini açır, müstəqil dövlətimizin təşəkkülünə gətirib çıxaran siyasi, mədəni, əxlaqi və ədəbi dünyagörüşünün formalaşmasını izləyir, Birinci və İkinci Qarabağ Müharibəsi (Vətən Müharibəsi) dövründə yaradılan ədəbiyyatın - "ədəbi-bədii salnamənin birinci və ikinci qatı" - örnəklərini araşdırır. Müharibənin başladığı vaxtdan indiyədək bilavasitə bədii ədəbiyyatın və ümumən ədəbi-humanitar mədəniyyətimizin son bir ildə əldə etdiklərini ümumiləşdirərək müəllif bu nəticəyə gəlir ki, Azərbaycan ədəbiyyatı, incəsənəti və mədəniyyəti qarşısında həqiqətən böyük perspektivlər açılır.

Rahid Ulusel doğru olaraq göstərir ki, dövlətimizin yeni milli arxitekturasını yaradan - XXI əsr Azərbaycanı, Vətən Müharibəsi və müasir Qarabağ əsərinin baş qəhrəmanı İlham Əliyevdir. "Ədəbiyyatın Şuşa zirvəsini fəth etmək" - bu gün bizim yaradıcı düşüncəmizin görküdür.

**Kitabın elmi redaktoru və "Ön söz"ün müəllifi Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycanda Atatürk Mərkəzinin müdiri, akademik Nizami Cəfərovdur.**

**Emin Piri**

## 4 dəfə ərdə olan, 3 övladını itirən müğənnidən xəbər var: Azərbaycanlı gənc onun imicini dəyişdi



**Yadınızdadırsa məşhur türk müğənnisi və aparıcısı Sərən Sərəngil Kavacıkda yerləşən Medistase Xəstəxanasına aparılmışdı. 4 dəfə evli olub boşanan ana ola bilməmişdi. Beləki, hamiləlik dövründə yüksək qan təzyiqi və insultdən əziyyət çəkən müğənninin qızı Stefani yarımçıq doğulub və cəmi 1 gün yaşayıb. Sərən Sərəngil Stefanidə əvvəl daha iki övladını itirib. Əvvəlki iki övladı ana bətnində ölüb.**

Müğənni və aparıcı Seren Serengildən yeni xəbər var. Adalet. az xəbər verir ki, sənətçi təriflər aldığı makiyajı ilə bağlı sosial şəbəkədə video yayımlayıb. O bildirib ki, makiyajını azərbaycanlı stilist Elnur Həsənov edib.

Seren aparıcısı olduğu "Söylemezsem olmaz" verilişində də makiyajından və Elnurdan danışıb. "İstanbula köçməyin zamanıdır" deyə, Seren bildirib.

Proqramın digər aparıcısı Deniz Akkaya da Serenin görünüşünə təriflər yağdırıb.

Qeyd edək ki, Sərən tanınmış türk aktyoru Öztürk Sərəngilin qızıdır.

**Əntiqə**

## "Bir dəfə Qarabağda" tamaşasının premyerası olacaq



**"Səhnə teatrı"nın təşkilatçılığı ilə "Bir dəfə Qarabağda" adlı etno-müzikl tamaşasının premyerası olacaq. Adalet.az xəbər verir ki, tamaşa DTX Mədəniyyət mərkəzində nümayiş olunacaq. Tamaşanın rejissoru Elvin Mirzəyev, bəstəkarı Azər Hacıəskərli, musiqilərin söz müəllifi Eminqueydir.**

**Tamaşaçıları tamaşa boyu canlı musiqi və canlı ifalar gözləyir.**

**Qeyd edək ki, 30-31 oktyabr saat 19:00-da baş tutacaq tamaşaya biletləri "iticket.az"ın bütün kassalarından əldə edə bilərsiniz.**

**Eminquey**

# Qazaxın tarixi və tarixi abidələri

**İlk dəfə Qazax adına ərəb tarixçisi Al-Kufinin əsərində, VII əsrin hadisələrini təsvir edən zaman rast gəlinir. Onun adı böyük bir türk qəbiləsinin adı ilə bağlı idi. Qazax vaxtı ilə oymaq, sultanlıq, sonralar isə qəza mərkəzi olmuşdur. Təqribən XV əsrin sonlarında Qazax tayfaların yaşadığı yerdə Qazax sultanlığı yaradılmışdır. Səfəvilərin dövründə Qazax sultanlığı Qarabağ (Gəncə) bəylərbəyliyinə daxil idi. Qazax sultanlığının hakimləri sultan titulu və irsi hakimiyyətə malik idilər. Qazax sultanlığına 3 nəsil rəhbərlik etmişdir. 1-ci nəslə "Qazaxlı və ya Alqazaxlılar"deyilə Şıxlinsqilər aiddir. Osmanlı sultanı III Əhmədin dövründə Qazaxlılar Osmanlıların tərəfinə keçdiyinə görə Səfəvilər yenidən Qazaxı geri alarkən "Qazaxlı" tayfasını rəhbərlikdən azad etmiş onların əvəzinə iranlı Sübhanverdi xan adlı sərkərdəni Qazax sultanı təyin etmişlər. 1774-cü ildə Qazax sultanlığına rəhbərliyə salahlıda bəylik edən Kosa Mirzalı ağanın nəslindən olan Pənah bəy (vəkil) təyin edilmişdir (bu tayfa sonralar Vəkilov soyadını qəbul etmişdir). Azərbaycan ərazisində daş dövrünə aid ən qədim insan düşərgələrindən biri Damcılı mağarası da məhz bu bölgədə aşarkar edilmişdir. 1929 - cu ildə Qazax qəzası ləğv edilmişdir. 1930-cu ilin avqustunda Qazax rayonu yaradılmışdır.**

Qazax rayonun tarixi qədim və zəngin olduğu kimi onun tarixi, memarlıq və incəsənət abidələri də qədim və zəngindir. Rayonda qeydiyyata alınmış dünya ölkə və yerli əhəmiyyətli 112 tarixi abidə vardır. 56-sı arxeoloji , 45-i memarlıq , 6-sı monumental -tarixi abidə, 5-i dekorativ-tətbiqi incəsənət abidəsidir.

Qazax ərazisindəki hündürlüklər arasında Daş Salahlı kəndindən və Qazaxdan Yuxarı salahlı kəndinə gedən yoldan görünən Avey massivi diqqəti cəlb edir. Avey dağının adı bu bir zamanlar mövcud olan atəşpərəstlərin ibadətgahı ilə əlaqədardır (qədim türk dilindən -Ay evi). Avey massivi Avey Dövət qoruğu (ərazisi 3613 ha) çərçivəsində mühafizə olunur. "Avey" Dövlət qoruğu Azərbaycan SSR Nazirlər Sovetinin 22 fevral 1989-cu il tarixli 99 nömrəli qərarı ilə yaradılmışdır. Qoruğun ərazisində 56 ədəd abidə qeydiyyata götürülmüşdür. Bu abidələrin biri-Damcılı mağarası dünya, 32-si ölkə, 23-ü yerli əhəmiyyətli, təsnifatına görə 36-sı arxeoloji, 15-i memarlıq, 5-i isə dekorativ tətbiqi sənət abidələridir.



Sirli - soraqlı Əskipara qalası, od, yel, su dəyirmanları, qədim qoç fiqurları, məbədlər, türbələr, ehramlar, gümbəzlər, Göyəzən dağı, Koroğlu qalası, qədim Avey məbədi, Damcılı mağarası və digər abidələr milli tarixi sərvətimizdir.

***Avey qoruğunda 3 filial- "Əskipara", "Damcılı" və "Göyəzən" filialları fəaliyyət göstərir.***

Bu ərazidəki təbiət abidələrindən ən məşhur, maraqlı və ecazkarı Qazax rayonunun Abbasbəyli kəndində yerləşən Göyəzən dağıdır. Göyəzən dağı Mərkəzi Amerikadakı Mon - Peledən sonra ikinci nadir geoloji təbiət abidəsi, morfoloji məzmunu ilə dünyada tanınan vulkan tacıdır. Yüz milyon yaşı olduğu söylənilir. O zaman hirslə püskürən və nə vaxtsa səngiyib öləziyən vulkan daşlaşıb nəhəng Göyəzən dağını yaratmışdır. Əsrlər və qərinələr boyu təbiətin cəngi - cidalına məruz qalaraq xeyli qıvraqlaşmış, balacalaşmışdır. Dəniz səviyyəsindən hündürlüyü 900 m-ə yaxındır. Heç bir dağa, təpəyə bitişik deyil təkdir, zirvəsi nisbətən yastıdır. Deyilənə görə ulu babalarımız öz dövründə bayramlarda və düşmən təhlükəsi hiss edəndə dağın zirvəsində tonqal qalayarlarmış.

Göyəzən dağının ətəklərində bir çox qalalar, hörgülər, tikililər və yataq yerləri tikilmişdir. Həmin tikililərin qalıqları indidə mövcuddur. Dağın bir tərəfində başdan - başa hasar çəkilmişdir.

Burada yeddibürclü qala divarı və dördkünc qala, bina qalıqları, həmçinin bir neçə mağara aşkar olunmuşdur. IX-XII yüzilliklərə aid edilən tikili qalıqları öz möhtəşəmliyi ilə buranın bir qala - şəhər olduğunu söyləməyə imkan verir. Göyəzən dağında erkən orta əsirlərdə Alban xiristian məbədi yerləşirdi. Onun qalıqları indidə qalmaqdadır.

Qoruğumuzun əməkdaşları tərəfindən dağın ətrafında aşkar edilmiş üstü naxışlı qəbir daşı onun ətrafında olan sinə daşları bu ərazidə vaxtı ilə qəbiristanlıq olduğunu subut edir. Bu qəbir daşının dövrünü və mənsubiyyətini müəyyən etmək üçün "Avey" qoruğunun və AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun mütəxəsisləri birlikdə tədqiqat aparmışlar və üzrində xaç ve ornomentlər həkk olunmuş bu məzar daşının Qafqaz Albaniyası dövrünə aid olduğu qənaətinə gəlmişlər. Xaçın qollarındakı üç ləçək "Humay " ilahəsinə aid olunmaqla Oğuz türklərinə mənsubdur. Məzar daşı XII-XV əsrlərə aid edilir. Nəticədə belə qənaətə gəlinmişdir ki, "Göyəzən" dağının ərazisi qədim yaşayış məskəni olmuşdur.

Hə bir neçə kəlmədə Göyəzən dağının adı, daha doğrusu adının açması barədə. Bu haqqda mühazirə və yozmalar çoxdur. Qədim türk (Azərbaycan) söz və ifadələrinə əsaslanan mütəxəsislər dağın adının Göy ozan (tayfa adı) və ya Ozan kəndi mənalarını daşıdığını söyləyirlər. Bəziləri isə "Küy əzən" kimi izah edirlər. Şairlərin yazıçıların fikirincə isə dağın adı "Göy dələn", "Göyə baş vuran", "Göy əzən", mənalarını verir. Göyəzən qərbdə Günən dağından ( yeri gəlmişkən: "Günən" qədim türk dilində "gün enən", "gün batan" deməkdir) şərqdə Qazaxdan , şimalda Avey dağından görünür və öz əzəməti ilə sanki bizləri səsləyir. Ölməz şairimiz Səməd Vurğun öz el obası Qazaxa yolu düşəndə mütləq dağı gəzəməyə gəlirmiş. Ana təbiətimizin bu əsrarəngiz dağından zövq alaraq ilhama gəlib "Göyəzən" dağına yaraşdırdığı bu misraları dodağınada züm-zümə edərmiş.

*Göylərə baş çəkir Göyəzən dağı,*
*Axşam açıq olur ayın qabağı,*
*Bizim gəlinlərin bayram qabağı*
*Fəsəli yaymağı yadıma düşdü.*

**Bəli bu dağ göyə ucalandır, göyü dələndir, nəhayət ki əzəmətli, vüqarlı Göyəzəndir.**

**Tehran Nağdalıyeva,**
**Kiçik elmi işçi**

## Rusiya vaksini Oksforddan oğurlayıb




**İngiltərənin "The Sun" qəzetinin yazdığına görə, Rusiyada "Sputnik V" vaksinini yaradarkən Oksford Universitetinin alimlərinin bu peyvəndi yaranması isqiqamətində apardıqları araşdırmanın nəticələrindən qeyri-qanuni istifadə olunub.**

Anonim təhlükəsizlik şirkətinin işçiləri "The Sun"-a bildiriblər ki, xarici bir casusun həyati əhəmiyyətli məlumatları oğurladığına dair sübutları var.

Qeyd edək ki, Rusiyanın "Sputnik V" peyvəndini hazırlayanların Oksford alimləri tərəfindən yaradılan peyvəndə oxşar texnologiyadan istifadə etdiyi bilinirdi. İngiltərə Nümayəndələr Palatasının Mühafizəkarlar Partiyasından olan üzvü Bob Sili məsələyə münasibət bildirərkən "Düşünürəm ki, Çin və Rusiya casusluğu iddiaları ilə əlaqədar ciddi addımlar atmalıyıq" deyib. Sözügedən iddia ilə əlaqədar hökumətdən və Rusiyadan hələ bir açıqlama verilməyib.

**Xtırladaq ki, ABŞ, Kanada və İngiltərədə keçən il peyvənd hazırlayan laboratoriyalar kiber hücumların hədəfi idi və bu hücumların arxasında Rusiyanın dayandığı iddia edilirdi.**

**AYXAN**

## Azərbaycan çempionu Braziliyadan oyunçu gətirdi




**Ölkəmizi UEFA Çempionlar Liqasında təmsil edən "Araz-Naxçıvan" heyətinə daha bir futzalçı cəlb edib.**

Qol.az xəbər verir ki, yayda iki braziliyalı futzalçı ilə güclənən son çempionun növbəti transferi də "sambaçı"dır. Əsasən müdafiədə yer alan David Qustavonun son klubu vətənində "Campo Mourao" olub.

25 yaşlı futzalçı artıq klubun heyətində qeydiyyata salınıb və o, Yüksək Liqanın oyunlarında da iştirak edə biləcək.

# İdman sarayında kitab sərgisi, boş-boş gəzişən tələbələr, 1 manatlıq mənasız kitablar

**"Əl oyunları" idman sarayının önünə çatanda ayaq saxladım, bir siqaret yandırdım, düşündüm ki, görəsən, Elşənin belinə taxdığı kəmərdən indi də olsaydı, o kəmər bura gələnlərin hansının belində dayanardı? Kim xilas edərdi qolları daşa dönmüş cəmiyyətimizi?**

Məni bu sualların əlindən Aysel Aydının gülümsəməsi xilas edir. Salamlaşıb, hal-əhvallaşıb birlikdə keçirik içəri.

Səs-küydən ağız-qulağa danışa-danışa Aysellə hələlikləşib içərini müşahidəyə başlayıram. Əsəd Qaraqaplanın da salam payını verib davam edirəm. İynə atsan yerə rahatlıqla düşər, amma sərginin sonuncu günü olduğunu nəzərə alsam, yaxşıdır.

Qəfil qeybdən səs gəlir:

***- Mehman Hüseynovla görüş yuxarıda, akt zalında başlamaq üzərədir. Hamınızı dəvət edirik.***




Bunu eşidər-eşitməz yuxarı qalxıram. Oturacaqlar doludur. Ayaq üstdə də adamlar var. Moderatorluğu Şahbaz Xuduoğlu özü edir. Mehman sosial şəbəkələrdə tənqidi fikirlər barədə danışır. Öz təcrübəsindən, həbsindən, korrupsioner məmurlardan... Şahbaz bəy arxaya çevrilib "kimin sualı var?" deyən kimi mikrofonu alıram. Mehmandan dron uçurtmağın müşkül olduğu bir məmləkətdə hansısa məmurun villasının başında rahatlıqla necə dron uçurtduğunu, bu cəsarətin hardan qaynaqlandığını soruşuram.

"Bu ölkədə karyeranın pik nöqtəsi həbs sayılırsa, bəs həbsdən sonrası nədir? Kiminsə kurasiyasına düşüb bəlli sərhədlər içində kimlərisə tənqid etmək?"

Şahbaz bəyin müdaxiləsini görən kimi "sualımda qərəz, kin yoxdur, sadəcə maraqlıdır, çünki Mehmanı çoxdandır izləyirəm və həbsdən sonrakı fəaliyyətində bir dövr səngimələr oldu".

***Əminəm ki, nə Şahbaz bəy, nə də Mehman bu sualı gözləmirdi. Mehman ənənəvi nəzakətlə "çox əla sualdır" deyib sözə başlayır. Rabitəsiz və uzun danışdığı üçün çıxışı tam olaraq yaza bilməyəcəm, amma sözünün canı bu oldu ki, dəqiq bildiyin, haqq olduğun mövzuda sona kimi getmək mümkündür. Sadəcə cəsarət lazımdır. Yazıçılarımızdan birinin bu mövzuda Mehmana ünvanlanmış statusuna yazdığı "dron uçurtmaq üçün adamda ... lazımdır" cavabının arxasınca da gülə-gülə "o ... da məndə var, mən Mehman Hüseynovam" deyə əlavə edir.***

Mehman şəkil çəkdirə-çəkdirə aşağı zala düşür.

Bu qədər adamın içində Ayseli özümə doğma bildiyim üçün tez-tez yaxınlaşıb söhbətləşirəm. Aysel əliylə qarşıda duran oğlanı göstərib deyir:

***- Bu oğlan mənim izləyicimdi. Az əvvəl həyat yoldaşı ilə gəlmişdi. Xanımına kitablarımı göstərib (barmağıyla"Qadın peyğəmbər", "Qızlar ağlamaz" kitablarını işarə edir) gəl bunlardan alaq dedi. Xanım isə razılaşmadı.***

***- Aysel, görürsən? Mən demişəm də. Bu ölkədə kişilər göstərərəm ki, qadınlardan qat-qat feministdir. Qadınların hüququnu qadınlardan daha çox müdafiə edir. İndi o xanımına feminist bir yazarın qadınların haqqında yazdığı kitabı almaq istəyən kişi neyləsin?***

Gülüşürük...

Bu gülüşə salam da əlavə edib Cəlil Cavanşirlə görüşürəm.

***- Üzündə qəribə xoşbəxtlik var. Nə əcəb?***

***- (Gülə-gülə) Abi, sevgidən ola bilər.***

***- Vallah, şairlərdən kimisə xoşbəxt görəndə sevinirəm. Hamısı bədbinlik içindədi.***

***- Hə... olur da, ildə üç-dörd ay belə xoşbəxt oluram.***

***- Kitab alacaqsan?***

***- Alacam, amma hələ gəzişirəm, dostum Nadir Yalçın gəlsin.***

***- Oldu o zaman, buradayam.***

Hiss edirəm ki, bu xoşbəxtliyin üstünə bir siqaret yaxşı gedər. Qapıdan çıxanda qəfil bir adam əlini uzadıb "ooo, Eminquey, sizi izləyirəm, yaxşı şeirlər, maraqlı statuslar paylaşırsız" deyib salamlaşır, qapıdakı sıxlıqdan Mirişvari yaxamı qurtarıb "salam, çox sağ olun, var olun" deyib küncə çəkilirəm.

Siqaretimin yarısına çatmışdım ki, uzaqdan qara-qura, totux-motux bir oğlanı görüb İlkin Rüstəmzadəyə bənzədirəm. O yaxınlaşdıqca daha çox İlkinləşir və mənə çatmağa beş-üç addım qalmış qollarını açmağa başlayır:

***- Salam, bəy.***

***- Salam, İlkin, axır ki görüşdük.***



İlkin beş-üç kəlmə dodaq dərbəşdirəndən sonra hələlikləşib içəri düşür. Yəni sərgiyə. Bir dəfə içəri düşüb, altı il yatıb. Yəqin elə ona görə də çıxışını axşam altıya salıblar.

Artıq Nadir Yalçın da gəlib.

Çiynimdə çantam, içində beş-altı kitabım var. Hər ehtimala götürmüşəm ki, məni izləyən, tanıyan, oxuyan kəslərdən kimsə kitabımı almaq istəyər.

Açığı üstümdə çox pul da götürməmişəm.

Qarşıda bir səbətin işığına milyonlar şərikdir. Nadir deyir ki, gəl gedək, o səbətdə 1 manatlıq kitablar var. Yəqin nəsə taparıq. Bir-birindən mənasız imzaların içində Selincerin hekayələrini tapıb şükür edirik.

Bir oğlan yaxınlaşır. Gəlişindən hiss edirəm ki, çantamı açacam, bir kitab bu oğlana satacam.

Kitablarımı təkbaşına satmışam deyə artıq insanların gəlişindən bilirəm ki, kitabımı alacaq, yoxsa yox. Yanılmıram. Və kitabımı imzalamaq üçün yuxarı, Ayselin dayandığı yerə gəlirəm. Aysel oxucuları ilə şəkil çəkdirir.

Masasının üzərində qələm axtara-axtara gözüm Ayselin əlinə sataşır. Qələmi barmaqlarının arasından alıb kitabımı imzalayıram. Pulumu da məmnun-məmnun alıb cibimə qoyuram. Miri bəy şəkil çəkdirib, təşəkkür edib gedir.

Gah telefona baxıram, gah ətrafa göz gəzdirirəm.

***- İlkin, kitabını alacam. Həbsdə başına nələr gəlib, maraqlıdır.***

***- Bəy, darıxma, çölə çıxanda sənin üçün kitab imzalayacam. Mənim yazar-pozar dostlara hədiyyəlik kitablarım həmişə üstümdə olur.***

***- Nə gözəl. Oxuyum, mütləq tənqid edəcəm.***

İlkinin kitabını çantama qoyanda hiss etdim ki, çiynimə zindan ağırlığı çökdü. İlkin təəssüratda bu kitabla ədalətsizliyə qarşı da savaşmaq olar deyə düşünürəm. Qalın üz qabığı, səhifələri çox, çəkisi də maşallah!

Bu cür tədbirlərdə simulyasiyalar çox olur. Məsələn, bir dəstə tələbəni yığıb gətirirlər ki, ortada gəzişin, adam sayı çox görünsün. İşçilərdən birinin bir dəstə gəncə "hələ getməyin" deməsindən anladım ki, burada da belə bir şey var. Amma istənilən halda kitab almaq üçün gələnlər var və hələ də insanda nələrəsə ümid etməkdən əl üzdürmür.

Deyim var, kitabxana qurmaq məbəd yaratmaq qədər müqəddəs bir işdir. Kitab alan, oxuyan az olsa da, "Əl oyunları" idman sarayını kitabla doldurmaq da müqəddəs bir işdir. Hələ-hələ gücün ağıldan üstün olduğu bir dövrdə. Özü də elə idman sarayında.

Bu sərgidə daha bir oxucuma imzalı kitabımı satıb, dostlarımın sevincindən pay götürüb ayrılıram.

**Siz də sağ olun ki, bu yazını sonacan oxudunuz.**

**Eminquey**

# Bağışla məni

**Mən Kəmalə Abıyevanın yaradıcılığına çox-çox uzun illərdir ki, müraciət edirəm və bu da səbəbsiz deyil. Çünki Kəmalə xanım mənim aid olduğum ədəbi camiənin ən istedadlı qələm sahiblərindən biridir. Xüsusilə onun könüllər oxşayan sevgi şeirləri, dillər əzbəri olan mahnı mətnləri hər bir oxucunu zaman-zaman özünə çəkir. Ona görə də ruhuma doğma olan bu poetik dünyanın sakinlərindən biri kimi hər zaman gözüm onun imzasını axtarıb. Axtarışlar da bəhrə verib. Mən onun yeni şeiri ilə, yeni fikirləri ilə, yeni sözü ilə qarşılaşmışam. Təbii ki, bu qarşılaşma da ovqatıma ovqat qatıb.**

Açdım Kəmalə xanımın mənə verdiyi kitabı. İlk oxuduğum şeir "Bağışlama məni" idi. Bilmirəm bu təsadüf oldu, yoxsa. Bunun özü də həyatımızın bir tələbatıdı, bir hökmüdü. Axı zamanın onun iqtisadi problemlərinin və bir az da laqeydliyimizin ucbatından bir-birimizi az arayıb axtarırıq. Bir-birimizlə görüşməyə gah vaxt tapmırıq, gah da həvəs göstərmirik. Ona görə də Kəmalə xanım doğru deyir:

- Bağışlama məni!

İndi qayıdıram qarşıma çıxan ilk şeirə:

*Nə olsun qayıtdım, əlindən tutdum,*
*nə olsun ki, sənə "bağışla" dedim.*

ri həm içində oxumaq, həm də nəğmə kimi zümzümə etmək adamın bu qayğılardan, bu yüklərdən xilasına bir açardır.

Barəsində fikirlərimi bölüşdüyüm bu kitabın adı "İrəvanda diz qoysam" adlanır. Doğrusu, bu adın hardan qaynaqlandığını özündən soruşmaq istəyirdim.

Amma sonra kitabdakı şeirlərin düzülüşünə, onun mövzu dairəsinə fikir verib anladım ki, Kəmalə xanım bu kitabda torpağa, vətənə, onun daşına, suyuna, bayrağına, əsgərinə, tarixinə və bir də insanına olan sevgilərinin ifadəsini, cizgilərini toplayıb. Yəni bu sevgilər bütövləşib və sonda zaman-zaman yaddaşımızda,

Təqribən bir ay bundan öncə Kəmalə xanımla üz-üzə gəldik. "Azərbaycan" nəşriyyatında, "Ədalət" qəzetində mənə aid olan hücrədə başımı yazı-pozu ilə qatdığım zamanda dəhlizdən tanış və doğma bir səs eşitdim:

- Bu Əbülfət harda oturur, onun yeri-yurdu haradır?

Dərhal səsə çıxdım, dəhlizdə qarşıladım Kəmalə xanımı. Otağa dəvət etdim. Oturduq üzbəüz. Öncə uşaqlardan, nəvələrdən danışdıq. Sonra ədəbiyyatdan, yaradıcılıqdan. O hətta ərklə məni danladı da. Dedi ki, hər səhər feyzbukda səni oxuyurdum, üç aydır itib-batmısan, yoxsan ortalıqda.

Sənə sevgi şeirlərini gözləyənləri intizarda qoymusan...

Beləcə söz-sözü çəkdi və mən Kəmalə xanımın son yaradıcılığı ilə bağlı durumun necə olduğunu soruşdum, təzə kitab istədim ondan. Dedi, elə yeni bir kitabım var şəhidlərlə bağlı. Onun bir az normal qiymətə çap olunması üçün gəlmişəm. İstədim sənin də fikirlərini bilim. Təbii ki, bu mövzuda məsləhətləşdik və mənim arzumu, istəyimi nəzərə alan Kəmalə xanım çantasından sonuncu kitabı çıxarıb avtoqrafla mənə bağışladı. Həmin avtoqraf belə idi:

- Əzizim, gəncliyim Əbülfət Mədətoğluna sevgilərlə!

Kəmalə xanımı yola saldıqdan sonra oxuduğum bu avtoqraf məni uzaqlara çəkib apardı. Mərhum şairimiz Vaqif İbrahimi xatırladım. Onun rəhbərlik etdiyi dərnək və dərnəyin üzvləri gəlib durdu gözümün önündə. Tez-tez görüşdüyüm Maşallah Məftun düşdü yadıma. Necə deyərlər, zamanı da qınadım, vaxtsız itkiləri də. Amma sevindim ki, söz yaşayır. Dünyasını dəyişən qələm dostlarımın ruhu qarşısında baş əyərək sözlərinə uzun ömür dilədim içimdə.






*Məni bağışlama, qurbanın olum,*
*bağışlama məni, qoy çıxım gedim.*

*Baxma sevgi yağan baxışlarınla,*
*mən sənin dünyanı yıxıb getmişəm.*
*Sən həsrət qaldın baxışlarıma,*
*özgə bir dünyanı yığıb getmişəm.*

*Sənin üzündəki qəmin izləri,*
*mənim üzümdəki qəmdən dərindi.*
*Ağarmış saçların, nəmli gözlərin*
*qatili olduğum ayın-ilindi.*

*Ömründə yer vermə, indi sən məni*
*ölən arzuların qoy arasına.*
*Mən də öz dünyama qoy çıxım gedim,*
*gedim xəyalların xarabasına.*

*...Ömrün baharı da qarlı qış oldu,*
*bir də o bahara dönə bilmərik.*
*Bağışlama məni, qurbanın olum,*
*biz xoşbəxt hekayə yaza bilmədik.*

Bir parçasını təqdim etdiyim bu şeirdəki duyğuları bir araya gətirmək və onu dupduru su kimi, dağ havası kimi oxucu ruhuna hopdurmaq heç də asan deyil. Amma bu asan olmayanı Kəmalə xanım o qədər ustalıqla gerçəkləşdirib ki, deməyə söz qalmayıb. Sadəcə bu şeiri həm içində oxumaq, həm də nəğmə kimi zümzümə etmək adamın bu qayğılardan, bu yüklərdən xilasına bir açardır.

ürəyimizdə bizim olub. Amma bu gün erməni paytaxtı kimi təqdim edilən İrəvana bir bayraq kimi sancılıbdı. O bayrağın altında da özü diz çöküb - yəni Kəmalə Abıyeva.

**Əl boyda bir kitab barəsində fikirlərimi atüstü qeyd etməklə mən həm Kəmalə xanıma, həm də onun oxucularına demək istəyirəm ki, hər ikiniz xoşbəxtsiniz. Biriniz şair kimi, biriniz isə o şairin dünyasının əzizləri, əziz qonaqları kimi. Deməli, bu kitabın təbriki hər iki tərəfə düşür. O ki qaldı sonuncu sözümə, Kəmalə xanım, kitabınız barəsində bu kiçik yazıya görə və bir də bu fikirləri mətbuata bir az gec çıxartdığıma görə məni bağışlayın.**

**Əbülfət MƏDƏTOĞLU**

Şahin, Şaiq Ələsgərov qardaşları ADHTİ-nun Anesteziologiya və reanimasiya kafedrasının dosenti

**Aydın Qədirovun**

vəfatından kədərlənir, ailəsinə dərin hüznlə baş sağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə,
"AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 129**
Çapa imzalanmışdır:
11.10.2021